

# Samir Nuriyev iclas keçirdi

*Azərbaycan Prezidentinin işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib. Unikal.org xəbər verir ki, Prezident Administrasiyasının və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin...*

Səh.2


# UNİKAL

№34 (2072) 17 sentyabr 2021-ci il Qiymәti 40 qәpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Ramin Bayramlı üçün həbs təhlükəsi

## TƏBİB-in sabiq rəhbəri çoxsaylı qanunsuzluqlara cavab vermək məcburiyyətində qalıb

*Təxminən on gün öncə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlının istefa verdiyi barədə məlumat, ardınca isə bu həftənin əvvəllərində sözügedən istefa ərizəsinin qəbul edildiyi barədə xəbər yayıldı. Ölkə mediası bu xəbəri təəccüblə qarşıladı, əslində isə adıçəkilən qurumun sabiq rəhbərinin vəzifəsindən ayrılmaq istəməsində təəccüblü heç nə yox idi.*

*Məsələ burasındadır ki, Bayramlı istefa verməmişdən öncə onun özünə dəbdəbəli villa tikdirdiyi barədə məlumat yayılmışdı. Həmin məlumatda iddia edilirdi ki, qurum rəhbəri 1 sot torpaq sahəsinin 70 min manatdan satıldığı Badamdar qəsəbəsi, birinci massivdən 4 sot torpaq alıb. İddialara görə, sözügedən torpaq sahəsində villa inşa etməyə başlayan Bayramlı baha qiymətə aldığı torpağı pandemiyadan qazanılan pullarla əldə edib.*

Səh.5

Səh.9



# Rəsmi Bakının son addımları Ermənistan cəmiyyətini təşvişə salıb

## "Xalqın cibinə girirlər, dövləti də talan edirlər"



*Son günlər bir sıra yanacaq məhsullarının qiymətinin artması narazılığa səbəb olub. Cəmiyyətdə açıq kütləvi etirazlar olmasa da, bahalaşmanın digər məhsullara da sirayət etməsi narahatlığın əhatə dairəsini genişləndirməkdədir. "Unikal" qəzetinə müsahibə verən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.*

Səh.4

## Tağı Əhmədovun növbəti çoxmilyonluq qalmaqalı...



*Yola salmaq üzrə olduğumuz həftənin ən səs-küylü xəbərlərindən biri "Bakı Metropoliteni"nin sabiq rəisi Tağı Əhmədovun 2 milyon manat pulunu sələmə verərək qazanc əldə etməsi sayıla bilər. Belə ki, T.Əhmədovun mərmər biznesi ilə məşğul olan şəxslərə faizlə pul verdiyi iddia olunur.*

Səh.8

## İdman-olimpiya komplekslərinin yeni nəsil idmançıların yetişməsində rolu



*Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin etdikdən sonra idman sahəsində buraxılan bir sıra nöqsanlara toxunub. Prezident rayonlarda tikilib istifadəyə verilən idman-olimpiya komplekslərinin fəaliyyətinin ciddi təftiş edilməli olduğunu söyləyib. Bu komplekslərin yeni idmançıların...*

Səh.5

# "Şou-biznesi təmizləmək lazımdır, bazara oxşayır" - Samir Bağırov



***"Şou-biznesdə vəziyyət çox çətindir. Təmizləmək lazımdır, bazara oxşayır. Bəlkə də mənim sənətə qayıtmağım elə belə deyil. İndi şou-biznesi təmizləmək olacaq".***

Bu sözləri müğənni Samir Bağırov MTV-yə açıqlamasında deyib. Uzun illərdən sonra səhnəyə dönən müğənni köhnə dostlarından heç bir xəbər almadığını, unudulduğunu bildirib:

"Kimnənsə nəsə gözləmirəm. Yox oldum və onlar məni unutdular. Amma eybi yox. Başda düşürəm, bu sənət belədir. Hər kəs öz işi ilə məşğuldur. Yalnız Aygün Kazımova ilə əlaqə var idi. Zülfiyyə Xanbabayevayla sonuncu dəfə "Azərbaycan" layihəsində görüşdük. Brilliant Dadaşovanı çoxdandır görmürəm, əlaqəmiz yoxdur".

# Manaf Ağayev metro ilə bağlı açıqlamasına aydınlıq gətirdi





***Müğənni Manaf Ağayev sosial şəbəkədə ünvanına yazılan tənqidlərə cavab verib.***

Sənətçi onun adından yayılan "Müğənninin metrodan istifadə etməsi doğru deyil. Deməzlər ki, bu nə gündədir metro ilə gedir? Mən özümə o sözü dedizdirmərəm. Metro bizlər üçün deyil" sözlərinə aydınlıq gətirib.

M.Ağayev bildirib ki, özü və qohumları metrodan çox istifadə edib: "Məni tanıyan bilir ki, hər zaman yetim-yesirin, kasıbın yanında olmuşam. Kasıba lağ etmərəm. Özüm kasıb olub, yataqxanadan gəlmişəm. İki sevdiyim nəqliyyat var: metro və təyyarə. Gəncliyim metroda keçib. Beş il unviersitetdə oxumuşam, metro ilə gedib gəlmişəm. Bu gün də qohum-əqrabam metroya minir. Qardaşım, bacım balaları tələbdir və dərsə metro ilə gedirlər. Guya metroya minəni təhqir etmişəm. Demək, öz nəslimi təhqir etmişəm? Mənimkilər hamıdan çoxdur. Dəliyəm, bu yaşımda belə söz deyim?

Dörd il əvvəl Tolikin verilişində dedilər ki, bir müğənni deyir metroya minmərəm. Cavab verdim ki, metro çox gözəldir. Amma nə dərəcədə düzdür ki, tanınmış müğənni gecə geyimnidə, salondan çıxıb metroya minib tədbirə gedir. Baxan deyəcək 2-3 manatı yoxdur taksiyə minib getsin? Təhqirdi bu?

Bilirəmki bunu kim edir. Neçə vaxtdır mənim üstümdə qara piar gedir. Bunun sonu yaxşı olmayacaq. Əsəbim yerində deyil. Bu yaşa gəlib özümü söydürüm? Söyüş söyənin 5-10-nunu tapmışam. Deyir, əmi qələt elədim. Pərdəarxası şirə dönürlər. Normal adam söyüş söyməz. Normal adam gəlib görüşər. Bu da onun başı üçün deyil. Özünə hörmət edən kişi sosial şəbəkədə belə şey etməz.

Mən belə söz deməmişəm. Allah onu yazanın bəlasın versin. Belə yox, başqa cür danışmalı idim. Amma 1 milyon izləyicim var, özümü cilalamışam. Özümü təmkinləyirəm ki, xalq inansın, elə səhv etmərəm".

# "Yaqub Zurufçu və Səyyad Əlizadə peyvənd olunublar, amma..." - Ailələrindən açıqlama

***Xəbər verdiyimiz kimi, əməkdar artist Yaqub Zurufçu koronavirusdan vəfat edib. Digər sənətçi Səyyad Əlizadənin də vəziyyəti ağırdır, suni tənəffüs aparatına qoşulub. Bəs, görəsən iki sənətçi peyvənddən sonra yoluxub?***

Y.Zurufçunun xanımı Aynur Zurufçu "sherg.az"a mərhumun peyvənd olunduğunu söyləyib. S.Əlizadənin kürəkəni Razim Qarayev sənətçinin peyvəndin birinci dozasını vurdurduğunu deyib.

O, həmçinin müğənninin durumunda bir dəyişiklik olmadığını bildirib.

# Vasif Məhərrəmli iş qurmaq istədi, sonu ölümlə nəticələndi

***Müğənni Vasif Məhərrəmli açıqlaması ilə diqqət çəkib.***

"Onun sirri" proqramına qonaq olan sənətçi gənclikdə yaşadığı ağır travmadan bəhs edib.

Sənətçi ölümdən döndüyünü deyib: "Mənim hər iki əmim rayonda yaşayır. 25 yaşım olardı ki, əmilərimdən biri ticarətlə məşğul olmaq istəyirdi.



Bilirsiniz ki, həmin vaxtlar insanların çoxu ticarətlə məşğul olan zaman maddi ziyana uğrayırdılar. O, mənə təklif etdi ki, Qazaxda ortaq iş quraq. Kisələrlə şəkər tozunu ucuz qiymətə alıb baha qiymətə satmalı idik. Dostdan, tanışdan borc pul tapdım aldım. 4000 dollar düzəltdim.

Bakıdan aldığımız yükləri fəhlələr maşına doldurdu. İki avtomobillə biz rayona qayıdırdıq. Mən əmimin avtomobilində qabaqda oturmuşdum.

Əmimlə bir oğlan gəlmişdi, o da bizim maşında arxada oturmuşdu. Yük maşının sürücüsü yolda maşını saxlatıb dedi ki "Ürəyim sıxılır, gəlin biriniz oturun yanımda". Mən gedib onun yanında oturandan sonra əmimin avtomobilindəki oğlan öldü. Bu mənə ağır psixoloji sarsıntı yaratdı. Əsirdim məni tuta bilmirdilər".

# Xatirə İslam ailəsi ilə istirahətdə



***Xəbər verdiyimiz kimi müğənni Xatirə İslam ailəsi ilə birlikdə Moskvadadır.***

"Unikal" big.az-a istinadən xəbər verir ki, Xatirə sosial media hesabında yeni fotolaını paylaşıb. Fotolarda Xatirə, həyat yoldaşı Fəxrəddin və oğlu yer alıb. Onun paylaşımı izləyicilərin marağına səbəb olub.

# Məşhur müğənni gəlinliyi ilə diqqət çəkdi

***Türkiyəli məşhur müğənni Ece Seçkin pilot sevgilisi Çağrı Terlemez ilə dünya evinə girib.***

Unikal.org xəbər verir ki, ötən gün baş tutan nikah mərasimində müğənninin həmkarları, ailə yaxınları iştirak edib. Belə ki, Ece Seçkinin geyindiyi gəlinlik gündəm mövzusuna çevrilib. İki dəfə geyimini dəyişən məşhur müğənni iddialı gəlinliklə diqqət çəkib.



# Elçin Quliyev döyüş hazırlığının yüksəldilməsi ilə bağlı tapşırıq verdi

***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 11 sentyabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"na əsasən Dövlət Sərhəd Xidməti dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan Respublikası sektorunda təhdidlərə qarşı effektiv mübarizə fəaliyyətinin təmin edilməsi və dənizdəki şəraitdən müfəssəl şəkildə xəbərdar olma, müasir texniki imkanlardan istifadə etməklə döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması istiqamətində zəruri tədbirləri davam etdirir.***

Dövlət Sərhəd Xidmətindən (DSX) "Unikal"a verilən məlumata görə, sentyabr ayının 13-dən 15-dək "Xəzər dənizində Azərbaycan Respublikasının dəniz infrastrukturuna yönəlmiş terror-təxribat aktlarının qarşısının alınması zamanı Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən axtarış əməliyyatları keçirilməklə təxribat qruplarının zərərsizləşdirilməsi və dəniz təhlükəsizliyinin təmin olunması" mövzusunda taktiki təlim keçirilib.

Taktiki təlimdə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin müasir naviqasiya və radiotexniki avadanlıqlarla, silah sistemləri ilə təchiz edilmiş sərhəd gözətçi gəmiləri, DSX-nin Xüsusi Hava Əməliyyatları Qüvvələrinin helikopterləri, pilotsuz uçuş aparatları, kütləvi qırğın silahlarının və onların komponentlərinin aşkarlanması və müəyyənləşdirilməsi üzrə xüsusi avadanlıqlar, dəniz kampaniyasına yeni qəbul edilmiş müşahidə, aşkaretmə təyinatlı sualtı aparatlar, yerüstü və dəniz əməliyyatlarında tətbiq üçün itisürətli amfibiya qayıqlar istifadə olunub.

Üç mərhələdə yeddi taktiki epizod üzrə keçirilən təlimdə neft-qazçıxarma rayonlarının, platformaların, boru kəmərlərinin mühafizəsi və müdafiəsi ilə bağlı Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin və Xüsusi Hava Əməliyyatları Qüvvələrinin gündəlik xidməti şəraitdən fövqəladə şəraitə keçirilməsi, enerji infrastrukturlarının mühafizəsi üzrə birgə sərhəd-axtarış əməliyyatlarının aparılması, enerji infrastrukturlarının mühafizəsi zamanı suüstü və sualtı hədəflərin aşkarlanması və məhv edilməsi, sahildə və dənizdə aşkarlanıb təxribat qruplarının zərərsizləşdirilməsi, saxlanılan gəmiyə əsaslı baxışların keçirilməsi kimi təlim tapşırıqları uğurla icra olunub.

Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sərhəd gözətçi gəmilərinin raket komplekslərindən, həmçinin zenit-artilleriya qurğularından dəniz və sahil hədəflərinə qarşı döyüş atışları müvəffəqiyyətlə həyata keçirilmiş, neft-qaz infrastrukturu istiqamətində təxribat qrupunu havadan dəstəkləyən pilotsuz uçuş aparatının, sualtı təxribat qruplarının və sahildə düşərgə qurmuş təxribat qruplarının aşkarlanması və məhv edilməsi, kütləvi qırğın silahlarının komponentlərinin müəyyənləşdirilməsi elementləri yüksək dəqiqliklə icra olunub.

Təlimdə qarşıya qoyulan vəzifələr tam həcmdə yerinə yetirilib, şəxsi heyət möhkəm intizam, yüksək döyüş hazırlığı və peşəkarlıq nümayiş etdirilib.

Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev təlimlərin uğurlu yekunu və yüksək nəticələr münasibətilə şəxsi heyəti təbrik edmiş, Xəzər dənizində dövlət sərhədinin etibarlı mühafizəsinin, döyüş hazırlığının daha da yüksəldilməsinin, neft-qaz hasilatı və daşınması infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin Dövlət Sərhəd Xidmətinin əsas vəzifələrindən olduğunu vurğulamış, dənizdə sərhəd mühafizə imkanlarının təkmilləşdirilməsi və şəxsi heyətin peşəkarlığının artırılması üzrə tapşırıqlar verilib.

***Zaurə***

# Tağı Əhmədovun növbəti çoxmilyonluq qalmaqalı...

## Keçmiş "metro şefi"nin indi də sələmçiliklə məşğul olduğu ortaya çıxıb, əsas sual isə budur ki...



***Yola salmaq üzrə olduğumuz həftənin ən səs-küylü xəbərlərindən biri "Bakı Metropoliteni"nin sabiq rəisi Tağı Əhmədovun 2 milyon manat pulunu sələmə verərək qazanc əldə etməsi sayıla bilər.***

Belə ki, T.Əhmədovun mərmər biznesi ilə məşğul olan şəxslərə faizlə pul verdiyi iddia olunur.

Qazaxıstandan Azərbaycana mərmər gətirilməsi ilə məşğul olan Səadət Xəlilov, Sahil Abuşov və Qulu Muxtarov hazırda dələduzluqda ittiham olunurlar və onların işinə Bakı Ağır Cinayətlər Məhkəməsində baxılır. Elə 2 milyon manatlıq sələm məsələsi də həmin cinayət işi ilə bağlı məhkəmə prosesində ortaya çıxıb. Bu, sabiq "metro şefi" ilə bağlı son illərdə ortaya çıxan ikinci çoxmilyonluq iddiadır. Belə ki, daha əvvəl Tağı müəllim məlum "MTN işi"ndə 1 milyon 200 min dollar, 1 milyon 500 min avro və 300 min manat, ümumilikdə isə o vaxtkı xarici valyuta məzənnəsi ilə təxminən 3 milyon manat rüşvət verdiyini bildirmiş, bu qədər pulu hardan aldığına dair məhkəmənin sualına isə maraqlı cavab vermişdi: "O vaxt 3 milyon manat böyük pul deyildi..."

Halbuki Bakı Metropoliteninin sabiq rəisi bir müddət əvvəl "Space TV"nin "Sadə həqiqətlər" verilişində maraqlı açıqlama vermişdi: "Hazırda dövlətdən 3640 manat pensiya, 1000 manat YAP-dan, 1500 manat kafedra müdiri kimi maaş alıram . Vicdanıma and olsun ki, dövlətdən bir manat götürməmişəm".

Beləliklə, Əhmədovun öz etirafına görə, onun aylıq rəsmi qazancı 6140 manat təşkil edir. Hansı ki, bu məbləğlə bir il dolanmaq məcburiyyətində qalan yüzminlərlə ailə var. O da ayrı söhbətin mövzusudur ki, hazırda 72 yaşı olan Tağı müəllim bir gündə 2 iş yerinə baş çəkməyi necə bacarır, üstəlik, onun pensiyasının məbləği ilə sadə təqaüdçülərin aldığı məbləğ arasında 10 dəfədən çox fərq nə ilə izah edilə bilər?!

İndi isə qayıdaq sabiq "metro rəisi"nin "MTN işi"ndə verdiyi rüşvətlə bağlı "O vaxt 3 milyon manat böyük pul deyildi" sözlərinə...

Təsəvvür edirsinizmi, aylıq maaşı ən yaxşı halda 1-2 min manat arasında olan məmurun fikrincə, 3 milyon manat elə də böyük pul deyil! Halbuki həmin vəsaitin onda birini belə, camaatın 80-90 faizi yəqin ki, heç yuxusunda belə görməyib...

Ən təəccüblü isə Tağı müəllimin həmin 3 milyon manatı 40 illik maaşı sayəsində yığdığını söyləməsi olmuşdu. Bu həmin vaxt yerli mediada və sosial şəbəkələrdə müzakirə mövzusuna çevrildi. Əksəriyyət haqlı olaraq Əhmədovun səmimiyyətinə inanmırdı.

Niyə də inanmalı idi? Elə "MTN işi"nin məhkəməsində sabiq "metro rəisi"nin, məsələn, metronun "Sahil" stansiyasının üstündəki binada 4 mənzil, "Yeni Həyat" yaşayış kompleksində 4 mənzil, Neft Akademiyasının əsas korpusu ilə üzbəüzdə 7-8 dükan, Bakıda 6-7 bağ evi, Yasamal Rayon Məhkəməsinin yeni binasının yaxınlığındakı "Kolizey" və "Şəhrizad" restoranları, Dubayda elit yaşayış kompleksində yerləşən otelin 3 mərtəbəsi, yenə də Dubayda böyük bir ticarət mərkəzi sahibi olduğu ortaya çıxmamışdımı? Onun Moskvada metro çıxışında 5 milyon manata 120 kvadratmetrlik dükan alaraq icarəyə verdiyi, təkcə bir bankda 13 milyon dollar pulunun aşkarlandığı, başqa iki bankda da hesablarının müəyyənləşdirildiyi, ümumiyyətlə isə onun və yaxınlarının hesablarında 21 milyon dollar pul olduğu deyilməmişdimi?

Bundan sonra "40 illik maaş" "arqumenti"nə inanmaq üçün insan ya ağlını itirməlidir, ya da lap əvvəldən ağılsız olmalıdır.

Və budur, indi də keçmiş "metro rəisi"nin 2 milyon manat sələm verdiyi bildirilir. Halbuki Tağı müəllim keçmiş müsahibələrinin birində vicdanına and içmişdi ki, dövlətdən bir manat götürməyib.

Sual meydana çıxır: elə isə vaxtilə 3 milyon manat rüşvəti, ya da indi 2 milyon manata sələmi o necə verib? Yenə də vəzifə maaşı ilə, təqaüdlə?! Gülməli deyilmi? Əlbəttə, gülməlidir, həm də şaqqanaq çəkəcək qədər gülməlidir.

Çünki bağça uşağı belə Tağı müəllimin bu qalmaqallı sərvətinin kökündə onun Bakı Metropoliteninin rəisi olduğu dövrdəki korrupsiya əməllərinin dayandığını asanlıqla təxmin edə bilər. Bircə o müəmmalı qalır ki, hər dəfə bir neçə milyon manatlıq skandalla gündəmə gələn cənab Əhmədovun həmin pullarının qaynağı nə üçün hüquqi müstəvidə araşdırılmır? Bir çox iri məmurlar hətta vəzifələrini itirdikdən sonra belə vaxtilə yol verdiyi qanunsuzluqlara görə istintaqa cəlb edildiyi, qanunlar qarşısında cavab verməli olduğu halda keçmiş "metro şefi"nin istisna təşkil eləməsinə ad tapmaq həqiqətən çətin məsələdir...

***Hüseyn İsgəndərov***

# Rəsmi Bakının son addımları Ermənistan cəmiyyətini təşvişə salıb

## Azərbaycan polisinin Gorus-Qafan yolunda post qurması erməni cəmiyyətində zəlzələ effekti yaradıb

***Bir neçə gün öncə İrandan keçərək Qarabağ ərazisinə, daha dəqiq desək, Xankəndinə yük avtomobillərinin keçməsi ilə bağlı məsələ ciddi müzakirə mövzusu oldu. Məsələyə Azərbaycanın rəsmi qurumları da sərt reaksiya verdilər. Bunun ardınca Azərbaycan polisi Gorus-Qafan yolunda post qurdu. Bu postun qurulmasından sonra Ermənistan rəsmiləri tərəfindən etirazlar başladı. Hətta Azərbaycanın bu addımı erməni cəmiyyətində ciddi rezonansa və narahatlığa səbəb oldu.***

Politoloq Elçin Mirzəbəyli “Unikal” qəzetinə açıqlamasında deyib ki, Azərbaycan polisinin Gorus-Qafan yolunda post qurması bizim haqqımızdır və Ermənistanın bundan narahat olması normaldı: “Prinsip etibarı ilə Ermənistan tərəfi də rəsmən elan etdi ki, Azərbaycan öz sərhədləri çərçivəsində müvafiq postlar qurub. Bu, bilavasitə Azərbaycanın hüququdur. Azərbaycan və Ermənistan Birləşmiş Millətlər Təşkilatına SSRİ-nin inzibati ərazi bölgüsünə əsasən, eləcə də həmin sərhədlər çərçivəsində daxil olublar. Mövcud sərhədlər çərçivəsində Azərbaycan qanunlarına uyğun olaraq özünün suveren hüquqlarını təmin edir. Orada 21 kilometrlik ərazidə bütün prosesə nəzarət etmək və gömrük və polis xidmətinin deyil, eyni zamanda, fitosanitar xidmətini də təşkil etmək Azərbaycanın müstəsna hüququdur. Bu baxımdan Ermənistanın bu məsələyə hər hansı bir formada irad bildirmək hüququ yoxdur.

Digər tərəfdən də 10 noyabr və daha sonra 11 yanvar birgə bəyanatında kommunikasiyalarla bağlı olan məqamlarda açıq şəkildə nəzərdə tutulub. Həmçinin, qeyd olunana yolla bağlı razılaşma var. 21 km-lik Qubadlı rayonu ərazisindən keçən yolun həmin hissəsindən xarici ölkələrin yükdaşıması ilə bağlı hər hansı bir müddəa yoxdur. Yəni, bunu beynəlxalq bir yol kimi Azərbaycan öz üzərinə hər hansı bir status, ya da öhdəlik götürməyib. Bütövlükdə beynəlxalq avtomobil yolları ilə bağlı müvafiq konvensiyalar var və həmin konvensiyalara görə, indiki şəraitdə Azərbaycan faktiki tranzit ölkə hesab olunur. Burada söhbət Ermənistandan İrana və ya İrandan əks istiqamətə daşınan yüklərdən gedir. Amma bunu müvafiq qaydada tənzimləyən ikitərəfli və üçtərəfli müqavilələr olmalıdır ki, bu müqavilələr də hal-hazırda yoxdur. Bu baxımdan da Azərbaycanın xarici ölkələrin yük və ya sərnişin avtonəqliyyatlarını həmin ərazidən buraxmamaq kimi müstəsna bir hüququ var və o hüquq çərçivəsində də ölkəmiz müvafiq addımlar atır”.

Maraqlıdır, Ermənistan hökuməti Azərbaycanla sərhədyanı bölgələrdə ”icmaları birləşdirmə” siyasəti yeridir. Xüsusən də Göyçə mahalının Basarkeçər bölgəsində 18 kənd birləşdirilib ki, bu da xalqın etirazına səbəb olub. Ümumiyyətlə, bu qərar nədən irəli gəlir?

Müsahibimiz deyib ki, burada, əsasən, təhlükəsizlik məsələləri vurğulanır. Bu, həm də Ermənistan cəmiyyətindəki xofu büruzə verən bir faktordur: “Yəni onlar qeyd edir ki, ”biz burda oturub türklərin nə vaxt gələcəyini gözləməli deyilik”. Pisxoloji basqı və problemlərin mövcudluğu göz qabağındadır. Ərazilərin birləşdirilməsi məsələsinə gəldikdə isə Ermənistanda indiki şəraitdə xərclərin müəyyən qədər optimallaşdırılması prosesi gedir. Əslində isə bu, optimallaşdırmadan daha çox mövcud idarəçilikdə olan qüsurlardan əmələ gələn faktorlardır. Digər tərəfdən də Ermənistandakı mövcud inzibati ərazi subyektlərinə verilən müstəqillik həmin subyektlərin rəhbərlikləri tərəfindən özbaşına qərarların çıxarılmasına və ayrı-ayrı yerlərdə etirazların təşkil olunmasına zəmin yaradır. Bu aspektdən bəlli olduğu kimi, Azərbaycanla həmsərhəd bölgələrdə daha çox Ermənistanın indiki ultramilliləşmiş müxalifətinin və keçmiş hərbi cinayətkarların tərəfdarları daha aktiv şəkildə fəaliyyət göstərirlər. Bu birləşmə məsələsində həm də Paşinyan hakimiyyətinin ölkədaxili siyasi maraqları var. O, həmin bölgələri özünə və yaxın adamlarına bağlamaq istəyir ki, bundan sonrakı məsələlərdə ciddi problemlər yaşamasın. Məsələnin mahiyyətində əsasən daxili faktorlar dayanır”.

Onu da qeyd edək ki, son günlərdə Qarabağın Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan bölgələrindən kütləvi erməni köçü yenidən fəallaşıb. Yəni onlar əvvəl “təhlükəsizlik” qorxusu ilə Qarabağdan qaçırdısa, hazırkı səbəb nədir?

E.Mirzəbəyli deyib ki, söhbət təkcə qorxudan getmir. Onun fikrincə, söhbət mövcud mənzərədən və reallıqlardan gedir: “Mahiyyət etibarilə bu gün həmin ərazilərdə nə iş yerləri, nə də investisiya yatırmaq üçün hər hansısa bir imkanlar var. Bəlli olduğu kimi, Azərbaycan da bütün qeyri-qanuni fəaliyyətlərin qarşısını alır və bundan sonra da alacaq. Söhbət həmin ərazilərə xarici ölkələrdən yük daşımaları və s. və i. gedir. Bu aspektdən də onlar perspektivin olmadığını kifayət qədər yaxşı başa düşürlər və nəinki Azərbaycan ərazilərini, hətta Ermənistanın özünü belə tərk edirlər. Çünki Ermənistanın özü üçün də yaxın gələcəkdə hər hansısa bir perspektiv yoxdur. Onların indiki şəraitdə yeganə çıxışı yolu Azərbaycan vətəndaşları kimi yenidən Azərbaycan cəmiyyətinə inteqrasiya edilməsindən və regionda həyata keçirilən layihələrdə yer almalarından ibarətdir. Ola bilsin ki, onların müəyyən hissəsi bu prosesdə iştirak edəcək. Çünki belə siqnallar da daxil olmaqdadır. Aqressiv əhval-ruhiyyədə olan insanlar Azərbaycan torpaqlarında yaşaya bilməyəcəklər”.



Milli Məclisin deputatı Sahib Alıyev isə məsələyə bir qədər fərqli aspektdən yanaşıb: “Sosial şəbəkədə İrandan Ermənistana, oradan da Qarabağın haylar, dönmüş albanlar və ermənilər(xristian qıpçaqlar) yaşayan hissəsinə yanacaq daşıyan bəzi azərbaycanlı sürücülərin videolarını yayıb onları tənqid və hətta təhqir edirlər. O sürücülər mənən yazıq, yazıqdan yazıq adamlardılar. Onlara Qarabağa yanacaq daşıtdıranların məqsədi təkcə düşmənə kömək deyil, həm də fars şovinistlərinin haqqımızda işlətdikləri “uzunqulaq”, “tarakan” və sair təhqirlərə haqq qazandırtmaqdır”.. O, qeyd edib ki, mənliyi, adamlığı, şərəfi olan heç kim qardaşının qanını tökən, məscidlərini, məzarlıqlarını dağıdan, özlərini yurdlarından didərgin salıb evlərinin altını üstünə çevirən düşmənə yardım etməz, yanacaq aparmaz: “Qarabağın bir hissəsi, Şərqi Zəngəzur işğal altında olarkən orada sökülən evlərin, məscidlərin materialları niyə əziz-xələf farslara, digərlərinə yox, məhz azərbaycanlılara satılırdı? Bizi parçalamaq, üz-üzə qoymaq və az öncə vurğuladığım kimi haqqımızda işlətdikləri təhqirlərin nə dərəcədə yerində olduğunu göstərmək üçün. Varmı aramızda “uzunqulaq”, “tarakan” damğasına haqq edənlər? Var. Amma o sürücülər tarakan deyil, mədəsiylə düşünən yazıq adamlardır. Tarakanlar isə ağılı, savadı olsa da, rejimə, fars şovinizminə canı dildən xidmət edən, düşmənlərimizə qucaq açan, dəstək göstərənlərdir. İrandakı soydaşlarımız deyəndə mənim gözümün önünə rejim nökərləri, sözün hər anlamında o qərib, yazıq sürücülər yox, 44 günlük savaş zamanı Təbrizdə, Sulduzda, Ərdəbildə ayağa qalxanlar, Ermənistana göndəriləni içi yük, həm də hərbi təyinatlı yük dolu tırların qabağını kəsənlər, düşmənin necə belini sındırdığımızı görüb Arazın o tayında yallı gedənlər, sevinc göz yaşlarını saxlaya bilməyənlər, “Traxtor”un oyunları zamanı “Azərbaycan” hayqıranlar gəlir. Hay qıranlar gəlir! Ona görə də buraxın mədəsiylə düşünənlərin cavabını qoyun onlar versin. Əminəm ki, verəcəklər də”.

“Və sonda istərdim ki, bizim o taydakı soydaşlarımız düşmənin işğal zamanı bu tayda sökub-dağıtdığı evlərimizdən, məscidlərimizdən, məktəblərimizdən göndərdiyi “ucuz” inşaat materiallarını alanlardan gedib maraqlansınlar. Soruşsunlar neçəsi bunun xeyrini gördü? Orada buradakı azərbaycanlının dağıdılmış evinin materiallarıyla tikilən evlərin neçəsində xoşbəxtlik var? Gördülərmi, varmı? Əsla ola bilməz! İnanmayanlar gedib yoxlasınlar. Yeri gəlmişkən, sonda bir tarixi faktı da xatırladım. Bizim soydan olsa da, türklüyünü heç vaxt hiss etməyən, nəsillikcə tam assimilyasiyaya uğrayan general-feldmarşal Kutuzovun bir gözü yox idi. Onun sağ gözünə iki dəfə güllə dəymişdi. Və hər iki güllə ayrı-ayrı vaxtlarda Rusiya-Türkiyə savaşında dəymişdi. Çünki dəyməliydi” - deyə, deputat bildirib.

***Ağarza Elçinoğlu***

# Prezident Dövlət Agentliyinə beş milyon manat ayırdı



***Prezident İlham Əliyev Bakı şəhərinin Xəzər rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam verib.***

Sərəncamda deyilir:

1. Bakı şəhəri Xəzər rayonunun Binə, Buzovna və Qala qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 5,0 (beş) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Samir Nuriyev iclas keçirdi

***Azərbaycan Prezidentinin işğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının növbəti iclası keçirilib.***

Unikal.org xəbər verir ki, Prezident Administrasiyasının və Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə keçirilən iclasda Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarının icrasına dair son vəziyyət təhlil edilib, qısamüddətli və uzunmüddətli perspektivdə qarşıda duran məqsədlər və onların həyata keçirilməsi ilə bağlı qurumlararası əlaqələndirmə məsələləri müzakirə olunub.



İclası giriş sözü ilə açan Samir Nuriyev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə sürətlə həyata keçirilən genişmiqyaslı quruculuq işləri dünya miqyasında nümunəvi xarakter daşıyır. Bununla yanaşı, müəyyən olunmuş vəzifələrin yüksək keyfiyyətlə və daha operativ yerinə yetirilməsi üçün Qərargahın, habelə İdarələrarası Mərkəzin nəzdində fəaliyyət göstərən hər bir işçi qrupunun fəaliyyətinin konkret nəticələrin əldə olunması istiqamətində səfərbər edilməsi zəruridir.

Ümummilli prioritetlərdən biri olan bərpa və yenidənqurma işləri ilə bağlı səmərəliliyin yüksəldilməsi üçün gündəlik qurumlararası sıx əlaqələndirmənin, kompleks yanaşmanın və vəzifə funksiyalarının dəqiq bölgüsünün mütləq şərt olduğunu qeyd edən Qərargahın rəhbəri bu sahədə məsuliyyətin davamlı şəkildə artırılmasının vacibliyini diqqətə çatdırıb.

İclasda şəhərsalma, enerji təminatı, tarix və mədəniyyət abidələrinin bərpası, təhsil və səhiyyə xidmətlərinin planlı təşkili ilə bağlı məsələlər ətraflı müzakirə edilib, vəzifələrin icrası ilə əlaqədar növbəti addımlar müəyyən olunub və müvafiq tapşırıqlar verilib.

# İlham Əliyev onu "Prezidentin fəxri diplomu" ilə təltif etdi

***Azərbaycan dövlət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Əli oğlu Məmmədəliyev "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

# Üçüncü doza kimlərə vurula bilər? - ÜST AÇIQLADI

***"Artıq ortaya çıxıb ki, vaksinlərin qoruyuculuğu bir müddət sonra azalmağa başlayır. Bunu artıq görürük".***

Unikal.org xəbər verir ki, bunu Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı deyib.



"Üçüncü doza növbəti ildən hamıya tətbiq edilə bilərmi" sualına cavab verən ÜST nümayəndəsi bildirib ki, üçüncü doza məsələsinin elmi olaraq vacibliyi ortaya çıxır. Onun sözlərinə görə, hələ səhiyyə işçilərini peyvəndləməmiş ölkələr var: "O ölkələr bu vəziyyətdəykən ehtiyacı olmayanlara, risk qrupunda olmayanlara üçüncü dozanın vurlmasını etik olaraq da doğru saymırıq. Bizim direktorumuz da üçüncü dozanın sadəcə ehtiyacı olanlara, yaşı 65-dən çox olanlara, səhiyyə işçilərinə vurulmasını tövsiyə edir".

H.Harmancı hələ peyvənd ala bilməyən ölkələrdəki insanların, xüsusilə səhiyyə işçiləri və yaşı 65-dən yuxarı olanların vaksinlənməsini daha vacib hesab edir.

# Müəllimlərin işə qəbul müsabiqəsi ildə bir neçə dəfə keçiriləcək



***Gələcəkdə müəllimlərin işə qəbul müsabiqəsinin il ərzində bir yox, bir neçə dəfə keçirilməsi nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bunu "Media və təhsil dialoqu" mövzusunda keçirilən təlimdə çıxışı zamanı Təhsil İnstitutunun İnsan Resursları Mərkəzinin direktor əvəzi Nurlan İsmayılbəyli deyib.

O bildirib ki, bu istiqamətdə yeniliklər olacaq: "O formata keçsək, vakant yerlərlə bağlı da yeniliklər olacaq. Düşünürük ki, bu, daha faydalı olacaq".

# Ermənistan Gorus-Qafan yolunu İran yük maşınları üçün bağladı

***Ermənistanın Milli Təhlükəsizlik Xidməti Gorus-Qafan yolunu İran yük maşınlarının hərəkəti üçün bağlayıb.***

"Unikal" Ermənistan KİV-lərinə istinadən xəbər verir ki, Gorus şəhərinin çıxışında onlarla yük maşını yığılıb. Ermənistan hüquq-mühafizə orqanları onları Qafana buraxmır.

Qeyd olunur ki, yük maşınlarının sürücüləri Azərbaycan tərəfinə rüsum ödəmək imkanına malikdir. Sürücülər rüsum tələbi ilə əlaqədar yolun bir hissəsini bağlayacaqları ilə hədələr edirlər.

Xatırladaq ki, Gorus-Qafan yolu Ermənistanı İranla birləşdirir. Bu yolun bir hissəsi Qubadlı rayonunun Eyvazlı kəndinin ərazisindən keçir.



Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2500




# Yoluxanların sayı 2000-dən aşağı düşdü

***Azərbaycanda bu gün koronavirus infeksiyasına 1783 yeni yoluxma faktı qeydə alınıb, 3680 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada 32 nəfər COVID-19-dan dünyasını dəyişib.

# Azərbaycana iki ölkədən quş əti gətirilməsini dayandırdı

***Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən başqa ölkələrdən respublikamızın ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (OIE) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirilir.***

AQTA-dan "Unikal"a bildirilib ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (OIE) məlumatına əsasən, Polşa Respublikasının Malopolski (Malopolskie) vilayətinin Gorlice, Nowy Sacz, Mazovieski (Mazowieckie) vilayətinin Minsk, Zuromin, Wolomin, Piaseczno, Varminsko-Mazurski (Warminsko-Mazurskie) vilayətinin Olsztyn, Velikopolski (Wielkopolskie) vilayətinin Szamotuly, Kalisz, Opolski (Opolskie) vilayətinin Krapkowice, Prudnik rayonlarında baş vermiş yüksək patogen quş qripi xəstəliyinin aktiv və müşahidə fazasında olan epizootik ocaqları mövcuddur, həmçinin Pakistan İslam Respublikasının Pəncab (Punjab) regionunda yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.

Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə OIE-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, qeyd olunan ərazilərdən bütün növ diri quş, quş əti və damazlıq yumurtanın idxalına müvəqqəti məhdudiyyət tətbiq olunub.

Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə Polşa Respublikasından və Pakistan İslam Respublikasından gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

# İşğaldan azad edilmiş ərazilərinin minadan təmizlənməsi ilə bağlı tapşırıq

***Sentyabrın 16-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasında minatəmizləmə fəaliyyətinin əlaqələndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərman imzalayıb.***



"Unikal" xəbər verir ki, Fərmanda Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlarından təmizlənməsi sahəsində əlaqələndirmə işinin gücləndirilməsi məqsədilə Nazirlər Kabinetinə beynəlxalq humanitar minatəmizləmə standartları nəzərə alınmaqla minatəmizləmə fəaliyyətinə dair tələbləri üç ay müddətində təsdiq etmək və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat vermək tapşırılıb.

Bundan başqa, Nazirlər Kabinetinə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təklifləri əsasında ölkəmizin işğaldan azad edilmiş ərazilərinin, habelə müharibə və hərbi əməliyyatların təsirinə məruz qalmış digər ərazilərin minalardan və partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlarından təmizlənməsi sahəsində prioritet təşkil edən ərazilər nəzərə alınmaqla minatəmizləmə üzrə illik planı hər il dekabrın 25-dək təsdiq etmək, məlumat bazasına daxil ediləcək məlumatların növünü, həcmini, daxiledilmə müddətini və qaydasını üç ay müddətində müəyyən etmək, eləcə də bu barədə Azərbaycan Prezidentinə məlumat vermək barədə tapşırıq verilib.

Fərmanda, Nazirlər Kabinetinə bu sənəddə nəzərdə tutulan plana uyğun olaraq, Agentlik və Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Sərhəd Xidməti arasında tapşırıqların bölgüsünün həyata keçirilməsi, həmçinin planda nəzərdə tutulmayan hallarda dövlət orqanlarının (qurumlarının) müraciəti əsasında minatəmizləmə işlərinin təşkili, Agentliyin maddi-texniki təminatının gücləndirilməsi üçün tədbirlər görmək, habelə ərazilərin minalardan və hərbi sursatdan təmizlənməsi sahəsində görülmüş işlər barədə mütəmadi olaraq Azərbaycan Prezidentinə məlumat vermək də tapşırılıb.

Dövlətimizin başçısının Fərmanı ilə Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin, habelə xarici ölkələrin müvafiq qurumlarının minatəmizləmə fəaliyyəti üzrə mövcud qüvvə və vasitələri nəzərə alınmaqla ərazilərdə minatəmizləmə fəaliyyətinin hər növbəti il üçün planlaşdırılmasına dair təkliflərini cari il dekabrın 1-dək hazırlayıb Nazirlər Kabinetinə təqdim etmək barədə tapşırıq verilib.

Bundan başqa, müəyyən olunub ki, Agentlik tapşırıqlar bölgüsünə uyğun olaraq əlaqələndirilməni, görülmüş işlərin icrasının monitorinqini və Fərmanda nəzərdə tutulan tələblər əsasında keyfiyyətlə tamamlanmasına nəzarəti həyata keçirsin.

Həmçinin Agentlik minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanlarının şəxsi heyətinin bu Fərmanda nəzərdə tutulan tələblərə uyğun olaraq ixtisasının artırılması ilə bağlı tədbirlər görülməsini təmin etsin.

Eləcə də Agentliyə "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, bu Fərmanda nəzərdə tutulan məlumatlara dair elektron məlumat bazasının dörd ay müddətində formalaşdırılmasını, eləcə də onun fəaliyyətini, məlumatların mütəmadi yenilənməsini və emalını təmin etmək, tapşırıqlar bölgüsünə uyğun olaraq görülmüş işlər barədə mütəmadi olaraq Nazirlər Kabinetinə məlumat vermək tapşırılıb.

Sənəddə, həmçinin müəyyən olunub ki, minatəmizləmə sahəsində fəaliyyət göstərən digər dövlət orqanları minatəmizləmə fəaliyyətini tapşırıqlar bölgüsünə uyğun olaraq öz qüvvə və vasitələri hesabına həyata keçirsinlər, minatəmizləmə fəaliyyətinə cəlb olunmuş şəxsi heyətin işini bu Fərmanda nəzərdə tutulan tələblərə uyğun təşkil etsinlər, tapşırıqlar bölgüsünün icrası, minatəmizləmə fəaliyyəti üzrə qüvvə və vasitələri, eləcə də digər müvafiq məlumatları mütəmadi olaraq Agentliyə verilməsini təmin etsinlər.

# Rafael Cəbrayılovun məhkəməsi təxirə salındı

***Bakı Ağır Cinayətlər məhkəməsində Milli Məclisin həbsdə olan sabiq deputatı Rafael Cəbrayılovun cinayət işi üzrə məhkəmə prosesi davam edib.***



Prosesdə bildirilib ki, təqsirləndirilən şəxsin vəkili Tərlan Azayev koronavirus infeksiyasına yoluxub. Hakim bildirib ki təqsirləndirilən şəxsin vəkilinin iştirakı olmadan proses davam etdirilə bilməz. Bu məqsədlə məhkəmənin növbəti iclası sentyabrın 30-na təyin edilib.

İttihama görə, 2005-2019-cu illərdə Azərbaycan Respublikasının Milli Məclisinin III, IV və V çağırışları üzrə deputatı olmuş Cəbrayılov Rəfael Kamil oğlunun qanunsuz əməlləri ilə əlaqədar Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə başlanmış cinayət işi üzrə istintaq yekunlaşdırılıb.

Belə ki, istintaqla Rəfael Cəbrayılovun Azərbaycan Respublikasının Milli Məclisinin deputatı olarkən ayrı-ayrı şəxslərə torpaq sahəsinə mülkiyyət hüquqlarının dövlət qeydiyyatından keçirilməsi barədə çıxarışın alınmasında köməklik göstərəcəyi, eləcə də digər məqsədlərlə yalan vədlər verərək cəmi 11 nəfər şəxsin ümumilikdə 2 milyon 571 min manat məbləğində pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməsinə, həmin hərəkətləri ilə də deputatının işgüzar nüfuzunun qorunub-saxlanılması ilə əlaqədar dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.

İş üzrə toplanmış sübutlar əsasında Rəfael Cəbrayılova Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq- külli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə- ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilərək məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.



# XTQ ilə bağlı memorandumun əhəmiyyətindən danışıldı

***Sentyabrın 16-da Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi payız sessiyasında videoformatda ilk iclasına toplaşıb.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a verilən məlumata görə, iclasda komitənin sədri Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə gördüyü işlər barədə hesabatı təqdim edib.

Bildirib ki, hesabat dövründə komitədə keçirilən 11 iclasda 21 məsələyə baxılıb. O cümlədən, "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunlarda, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi"ndə və eyni zamanda, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin daxili xidmət Nizamnaməsi"ndə, "Hərbi xidmətkeçmə haqqında" Əsasnamədə və digər qanunvericilik aktlarında əlavə və dəyişikliklər edilməsinə dair günün tələbindən irəli gələn qanun layihələrinə, həmçinin "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında fövqəladə halların nəticələrinin qarşısının alınması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq olunmasına baxılıb. Milli Məclisin müzakirəsinə tövsiyə edilən qanun layihələrinin əksəriyyəti komitədə üç oxunuşdan keçib və parlamentdə qəbul olunub.

Hesabatda vurğulanıb ki, sessiya ərzində seçicilərin qayğıları diqqət mərkəzində saxlanılıb, komitəyə daxil olan 121 ərizə və şikayət araşdırılıb, aidiyyəti üzrə baxılıb tədbir görülməsi üçün müxtəlif ünvanlara 55 məktub göndərilib. Digər müraciətlər isə ictimai qaydada öz həllini tapıb.

Ziyafət Əsgərov qeyd edib ki, hesabat dövründə komitə üzvləri sosial şəbəkələrdə fəallıq göstəriblər, ordumuza dəstəklə, həmçinin ölkəmiz və xalqımız üçün taleyüklü məsələlərlə bağlı KİV-lərdə sanballı məqalələrlə çıxış ediblər.

Sonra onlayn iclasda Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin 2021-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı müzakirə olunub.

Komitənin payız sessiyasında keçirilən ilk iclasında "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlıların təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsinə də baxılıb, sənədin əhəmiyyəti ətraflı şərh edilib.

Müzakirə zamanı komitə sədrinin müavini Hikmət Məmmədov, deputatlar Elman Məmmədov, Aydın Mirzəzadə, Arzu Nağıyev parlamentin yaz və növbədənkənar sessiyaları dövründə görülmüş işlər və payız sessiyası üçün iş planı barədə fikirlərini bildiriblər. Qardaş ölkələr olan Azərbaycanla Türkiyənin xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu yüksək qiymətləndirilib. Deputatlar komitənin işi ilə bağlı bir sıra təkliflərini nəzərə çatdırıblar.

Sonra "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlıların təliminə dair" Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında" qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Komitənin iclasında deputatlar Bəxtiyar Sadıqov, Əminə Ağazadə, Elşad Mirbəşir oğlu, Erkin Qədirli, Nurlan Həsənov, Kamal Cəfərov və Aqil Abbas, Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və digər rəsmi şəxslər iştirak ediblər.



## Həbsdəki icra başçısı əməliyyat olundu

***Yevlax Rayon İcra Hakimiyyətinin sabiq başçısı Qoca Səmədov ürəyindən əməliyyatı olunub.***

Bu barədə "Report"a onun vəkili Elnur Vəliyev məlumat verib.

Onun sözlərinə görə, Q.Səmədov Mərkəzi Klinik Xəstəxanada əməliyyat edilib: "Hazırda vəziyyəti yaxşıdı"

Xatırladaq ki, bir neçə gün əvvəl S.Qocayevin səhhətində problemlər yaranıb. Şəki Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə onunla bağlı başqa yerə getməmək barədə iltizam tədbiri seçilib və o, azadlığa buraxılıb.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin yaydığı məlumata görə, 2019-cu ilin noyabr ayınadək Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Qoca Səmədovun bu müddət ərzində vətəndaşların hüquqlarına, cəmiyyətin və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran çoxsaylı qanun pozuntularına yol verməsinə əsaslı şübhələr müəyyən edilib.

Dövlət qayğısı olaraq işsiz vətəndaşların ictimai işlərə cəlb edilib aylıq qazanc əldə edə bilmələri üçün dövlət büdcəsi hesabına ayrılan külli miqdarda əməkhaqqı ələ keçirilib, o cümlədən Yevlax şəhərində "Yaşıllaşdırma və işıqlandırma müəssisəsi"nin fəaliyyətinə və digər abadlıq, təmir-tikinti işlərinə cəlb edildiyi rəsmiləşdirilən 133 nəfər heç bir işə cəlb edilmədən və əməkhaqqı almadan, adlarına açılmış əməkhaqqı kartları Qoca Səmədovun tabeçiliyində fəaliyyət göstərən şəxslər tərəfindən ətraf rayonlardakı bankomatlarda nağdlaşdırılaraq, Qoca Səmədova şəxsən təqdim edilməklə 236.000 manat dövlət vəsaiti mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

2017-2019-cu illərdə dövlət büdcəsindən ayrılmış vəsaitlər hesabına Yevlax şəhərində abadlıq, təmir-tikinti işlərini həyata keçirmək adı ilə müxtəlif şirkətlərin hesablarına köçürülmüş 616.000 manat vəsait heç bir iş görülmədən Qoca Səmədovun tapşırığı ilə şirkət rəhbərləri tərəfindən nağdlaşdırılaraq ona şəxsən qaytarılmaqla təkrarən mənimsənilib.

Şəhər icra hakimiyyəti və əlaqəli strukturlarda çalışan işçilərin əməkhaqqından təsis etdiyi Şəhid ailələrinə və müharibə əlillərinə yardım Fonduna könüllü ödəmə adı altında hər ay faiz tutulub, yığılan pulun hər ay 8.000 manatadək olan əsas hissəsi Qoca Səmədova şəxsən təqdim edilib.

Qoca Səmədov vəzifə səlahiyyətlərindən sui-istifadə edərək İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin baş memarı Xalid Əhmədovun vasitəçiliyi ilə vətəndaşlar tərəfindən müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə 44 fiziki və hüquqi şəxsdən müxtəlif məbləğlərdə külli miqdarda təkrarən rüşvət tələb edərək almasına əsaslı şübhələr müəyyən edilib.

Qoca Səmədova vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, külli miqdarda təkrar rüşvət alma, mənimsəmə əməlləri üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham verilib.

# "Xalqın cibinə girirlər, dövləti də talan edirlər"

## Sərdar Cəlaloğlu: "Bahalaşma siyasəti 44 günlük müharibədə qələbə qazanan Azərbaycan xalqının 5-ci kalon nümayəndələri tərəfindən cəzalandırılma vasitəsidir"

***Son günlər bir sıra yanacaq məhsullarının qiymətinin artması narazılığa səbəb olub. Cəmiyyətdə açıq kütləvi etirazlar olmasa da, bahalaşmanın digər məhsullara da sirayət etməsi narahatlığın əhatə dairəsini genişləndirməkdədir. "Unikal" qəzetinə müsahibə verən Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu ilə söhbətimiz də elə bu mövzu ətrafında oldu.***

***-Sərdar bəy, öncə son qiymət artımı ilə bağlı fikirlərinizi bilmək istərdik.***

-Dünya bazarında Azərbaycan neftinin qalxdığı bir vaxtda ölkədə qiymətlərin qalxmasının heç bir elmi əsası yoxdur. Bu gün açıqlama verib əsaslandırmağa çalışırlar ki, xaricdə benzinin qiyməti qalxdığı üçün Azərbaycan da idxalçı olduğuna görə bahalaşma olur. Əgər bu artım xariclə bağlıdırsa, o zaman ölkə daxilində istehsal edilən məhsulların qiyməti düşər. Bu da onu göstərir ki, bütün bunlar bahalaşmaya don geyindirmək üçün bir bəhanədir. Bahalaşma siyasəti 44 günlük müharibədə qələbə qazanan Azərbaycan xalqının 5-ci kalon nümayəndələri tərəfindən hazırlanan cəzalandırılma vasitəsidir. Bunlar xalqın cibinə girirlər, dövləti də talayırlar. Onsuz da xalqın iqtisadi durumu aşağıdır. İndi guya təkcə Premium benzinin qiyməti qalxıb? Xeyr. Bazarda bütün məhsulların qiymətində bahalaşma var. Amma monopolistlər benzinin bahalaşmasını bəhanə edib gündəlik tələbat məhsullarını bahalaşdıracaqlar.



***-Hökumət nümayəndələri isə hər zaman bahalaşmanı əsaslandırmaq üçün "arqumentlər" tapırlar...***

-Heç bir arqumentləri yoxdur. Xaricdə istehsal olunur deyirlərsə, o zaman daxili istehsal niyə bahalaşır? Bunların hamısı bəhanədən başqa bir şey deyil. Azərbaycanda böyük bir talançılıq var. Həm dövlət əmlakının, həm də vətəndaşların ailə büdcəsinin dağıdılmasına yönələn bir proses davam edir. Bu şəkildə qiymət artımı Azərbaycanda ailə büdcəsinin dağıdılması deməkdir. Çünki bu qiymət artımı ailə büdcələrinin tamamilə boşalmasına hesablanıb. Belə demək mümkündürsə, bu siyasət ailə büdcələrinə yönələn korrupsiya sistemidir.

***- Müxalifət olaraq mövcud durumla bağlı hakimiyyətə hər hansı təkliflər vermisizmi? Artıq müəyyən təmaslarınız da var, sözünüzü deyə bilərsiniz...***

-Heç bir təklif qəbul edilmir. Hətta bu məsələlərin müzakirə edilməsinə belə razılıq verilmir. Belə bir məqamda biz necə təklif verə bilərik? Hələlik keçirilən görüşlərin də konkret mövzusu olur. Bu şəkildə problemləri müzakirə etmək üçün imkan yoxdur.

***-O zaman Siz də ictimai müzakirələr təşkil edin, təkliflərinizi ictimai şəkildə təqdim edin...***

-Qiymət artımı siyasi partiyaların problemi deyil, cəmiyyətin problemidir. Biz həmkarlar təşkilatı deyilik, biz vətəndaşların siyasi hüquqları ilə bağlı fəaliyyət göstəririk. Bununla bağlı rəsmi və qeyri-rəsmi dövlət təşkilatları var. Onlar ayağa qalxmalıdır, onlar tələb eləməlidirlər. Biz edə biləcəyimizi edirik. Deyə bilərik ki, "İqtidar yarıtmaz siyasət aparır, idarə edə bilmir". Onu da deyirik. Amma camaat özü ayağa qalxıb haqqını tələb eləməlidir. Burada müxalifətlik nə var ki? Müxalifət camaatın əvəzinə etirazlar keçirməlidir?

***-Hər halda, müxalifətin də öz missiyası var, ən azından prosesi formalaşdırıb, istiqamətləndirə bilər də...***

-Əgər etiraz yoxdursa, biz kimi yönləndirməliyik? Bu məmurları yönləndirmək olar? Görünən odur ki, Prezident bunları lazımi səviyyədə yönləndirə bilmir. Bu qədər deyilir, tapşırılır, amma nəticə yoxdur. Onlar başqa qüvvələr tərəfindən idarə olunurlar, arxayındırlar. Ona görə də necə gəldi qərarlar verirlər. Bəyəm qiymət qaldırmaq elə-belə məsələdir? Özləri milyon qazanır, camaatı da var-yoxdan çıxarırlar. Yəni, dövlət dövlət kimi idarə olunmur. Hansısa dövlət şirkətinin nə ixtiyarı var ki, qiymət artırır, qiymət artımı üçün tələb irəli sürür.

***-Yaxşı, müxalifət və cəmiyyətin müştərək olaraq prosesə təsir etmək imkanı var, yoxsa artıq alınmır?***

-Bu gün hökumətin xalqazidd siyasətinin qarşısını almaq üçün heç bir mexanizm yoxdur. Xalq bizim çağırışımızla yüzminlərlə küçələrə çıxmır ki, bu qərarı dəyişdirək. Nə də xalq özü müstəqil şəkildə öz hüquqlarını qoruyur. Yaxşı, biz nə etməliyik? Məhkəməyə verək, hansı məhkəmə ədalətli qərar çıxaracaq. Hansı üsulla məmur özbaşınalığının qarşısını ala bilərik? Heç bir üsulla.

***-Belə çıxır ki, biz oturub gözləməliyik ki, bu özbaşınalıq edən məmurlar nə vaxtsa insafa gələcək?***

-Biz niyə eləməliyik e... Ağzımda deyirəm ki, Azərbaycan xalqı özünün sosial-iqtisadi hüquqları uğrunda aktiv şəkildə mübarizə aparmalıdır. Ölkədə premium benzin istifadə edən yüz minlərlə insan var. Onlardan biri küçəyə çıxıb etiraz etdimi? Yox. Mən bunların əvəzindən küçəyə çıxıb ağrı çəkəsi deyiləm ki. Bir partiya kimi hakimiyyətin bu siyasətini pisləyirik. Bu siyasətin xalqı var-yoxdan çıxarmaq məqsədi daşıdığını deyirik. Hesab edirik və bəyan edirik ki, bütün bunlar ölkədəki nəhəng korrupsiyanın ört-basdır edilməsidir. Səbəblərini göstəririk, çıxış yollarını sadalayırıq. Yerdə qalan məsələlər bizlik deyil. Problemin həlli xalqın özü ilə bağlıdır.

Fransada koronavirus vaksinasiyası ilə bağlı məhdudiyyətlər tətbiq olundu, camaat küçələrə axışıb etiraz elədilər. Neçə gündür, Parisi dağıdırlar. Azərbaycanda söhbət ailə büdcəsinə yönələn talançılıqdan gedir. İnsanların ciblərinə girirlər, amma onlar etiraz eləmirlər. Yəni, dağılan ailə büdcəsidir, amma ailənin sahibi başını salıb aşağı, işini görür.

***-Elə ona görə də hökumət nümayəndələri deyirlər ki, camaatın hər hansı narazılığı yoxdur...***

-Ay sağ ol. Belə baxanda doğru deyirlər. Amma başqa bir məsələ də var. Bir tərəfdən xalqın etiraz eləməsi üçün heç bir imkan yaratmırlar. Polislə qorxudurlar, xalq da susmağa məcbur qalır. Bir tərəfdən xalqı susdururlar. O biri tərəfdən də deyirlər ki, xalq narazı olsa, küçəyə çıxar. Yəni, bunların oyununun mahiyyəti budur. Əgər o qorxu olmasa, yüz minlər küçəyə çıxar. Dünyanın heç bir yerində qiymət artımından razı qalan yoxdur. Bahalaşma varlı, kasıb məsləsinə baxmır. Qiymət artımı ədalətsiz olanda hamını narazı salır. Bu gün Azərbaycanda olan qiymət artımı ədalətsiz qiymət artımıdır. Söhbət ədalətsizlikdən, bir qrup adamın xalqa qarşı genosid siyasətindən gedir.

***-Sərdar bəy, proses bu şəkildə nə qədər davam edə bilər, bunun bir çıxış yolu yoxdurmu?***

-Əslinə qalsa, bu cür proseslərin davam etməsi təhlükəlidir. Biri var ki, xalq addımbaaddım öz problemlərini həll edir, biri də var ki, gözləyir və birdən ayağa qalxır və idarəolunmaz şəkildə proses başlayır. Bu qəfləti proses inqilab deməkdir, bu da nə dövlətin, nə xalqın maraqlarına cavab verir. Bu baxımdan, problem tədricən həll olunmalıdır ki, narazılıq toplanıb şişməsin.

***Z.Məmmədli***

# Ramin Bayramlı üçün həbs təhlükəsi

## TƏBİB-in sabiq rəhbəri çoxsaylı qanunsuzluqlara cavab vermək məcburiyyətində qalıb

***Təxminən on gün öncə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) sədri Ramin Bayramlının istefa verdiyi barədə məlumat, ardınca isə bu həftənin əvvəllərində sözügedən istefa ərizəsinin qəbul edildiyi barədə xəbər yayıldı. Ölkə mediası bu xəbəri təəccüblə qarşıladı, əslində isə adıçəkilən qurumun sabiq rəhbərinin vəzifəsindən ayrılmaq istəməsində təəccüblü heç nə yox idi.***



Məsələ burasındadır ki, Bayramlı istefa verməmişdən öncə onun özünə dəbdəbəli villa tikdirdiyi barədə məlumat yayılmışdı. Həmin məlumatda iddia edilirdi ki, qurum rəhbəri 1 sot torpaq sahəsinin 70 min manatdan satıldığı Badamdar qəsəbəsi, birinci massivdən 4 sot torpaq alıb. İddialara görə, sözügedən torpaq sahəsində villa inşa etməyə başlayan Bayramlı baha qiymətə aldığı torpağı pandemiyadan qazanılan pullarla əldə edib. Elə villa da həmin pullarla tikilir (həmçinin bəziləri sosial şəbəkələrdəki müzakirələrdə Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin bir müddət əvvəl TƏBİB-də keçirdiyi əməliyyatları, həmin əməliyyatlar zamanı koronaviruslu xəstələrin müalicə olunduğu xəstəxanaların rəhbərlərinin - "Yeni klinika" tibb müəssisəsinin direktoru Pərviz Abbasovun və FHN-in Zığda yerləşən modul tipli xəstəxanasının baş həkimi İmran Ağayevin, eləcə də onların çevrəsinə aid olan şəxslərin həbs edilməsini, bu şəxslərin qabaqcadan əlbir olaraq, koronaviruslu xəstələrin rəhbəri olduqları tibb müəssisələrində yerləşdirilməsi müqabilində onların yaxınlarından müxtəlif məbləğlərdə - 3000-3500 manat rüşvət almalarını yada salır, hələ o zaman bütün bunlara görə TƏBİB rəhbərliyinin də ciddi başağrısı yaşaya biləcəyini xatırladırdılar...

Lakin maraqlıdır ki, bu məlumatın üzərindən müəyyən vaxt keçsə də, TƏBİB sədri həmin iddialara cavab verməmişdi.

Bu da azmış kimi, daha əvvəl müxtəlif internet resurslarında paytaxtdakı "Referans" klinikasının da R.Bayramlıya məxsus olması barədə iddialar ortaya atılmışdı. Ramin müəllim həmin vaxt da bu iddialarla bağlı susqunluq nümayiş etdirmişdi. Elə onun Badamdarda, vaxtilə müdafiə sənayesi naziri olmuş mərhum Yavər Camalov və Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə məxsus mülklərlə qonşuluqda villa tikdirdiyi barədə çoxsaylı media quruluşlarında yayılan, eləcə də sosial şəbəkələrdə geniş müzakirə olunan iddialar barədə səssiz qalması da diqqətçəkici idi.

Bütün bunların fonunda Bayramlının səssiz qalmaq istəməsi, eyni zamanda atasının yerli KİV-ə danışması ikiqat ilgincdir. O, oğlunun "süddən çıxmış ağ qaşıq" obrazını yaratmağa çalışsa da, bir həqiqət gün kimi aydın idi: Səhiyyə Nazirliyinin yarıtmaz fəaliyyətindən cana doyan geniş kütlələr TƏBİB-in fəaliyyətə başlamasına ciddi əhəmiyyət verirdi. Lakin Bayramovun rəhbərliyi altında adıçəkilən qurumun da yaramazlığı və yarıtmazlığı açıq şəkildə gözlər önünə sərildi.

Hazırda gələn iddialarda TƏBİB-in keçmiş rəhbərinin zamanında adıçəkilən qurumda külli miqdarda dövlət vəsaitinin talan edildiyi və müəyyən yüksək vəzifəli şəxslərin açıq-aşkar şəkildə rüşvətxorluqla məşğul olduğu bildirilir. Görünən odur ki, Ramin Bayramlının TƏBİB-ə rəhbərlik elədiyi dövrdə ciddi korrupsiya əməllərinə imza atdığı barədə xəbərlər təsadüfi deyil. Belə ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyində həqiqətən də köklü yeyintiyə yol verilməsi göz qabağındadır; sözügedən mənimsəmə əməllərinə görə isə xeyli adamın hüquq önündə cavab veməsi qaçılmaz reallıqdır. Ramin Bayramlının bu reallıq qarşısında reaksiyası isə doğrudan da maraq doğurur. Odur ki TƏBİB-in sabiq rəhbəri özünün fəaliyyəti və istefası ətrafında yaranmış şübhələrə, müəmmalara, suallara, iddia və ittihamlara atasının vasitəsi ilə cavab vermək əvəzinə yaxşı olardı ki, özü birbaşa cavab versin. Məsələn, desin görək, milyonlarla manatlıq mülkə məhz TƏBİB-ə rəhbərlik etməyə başlayandan sonra sahib olmağa çalışması doğrudanmı təsadüfdür? Ya da həqiqətənmi, TƏBİB-ə bağlı olan sağlamlıq müəssisələrində xüsusi ilə Ramin Bayramlının rəhbərliyi altında, misal üçün, koronavirus səbəbi ilə "qaz vurub qazan doldurulması" halları yox idi?

Sualların siyahısını bəs deyincə uzatmaq mümkündür. Hələliksə görünən odur ki, Ramin müəllim bu "suallar burulğanından" yalnız istefa verərək qurtulacağını düşünür. Əgər belədirsə, o, kökündən yanılır. Niyə?

Bu suala da bəzi sabiq iri məmurların son illərdəki ənənəvi aqibətinə nəzər salmaqla cavab tapmaq mümkündür.

*Sənan Mirzə*

# FHN-dən əhaliyə MÜRACİƏT

***Fövqəladə Hallar Nazirliyi (FHN) gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.***




FHN-dən Unikal.org-a daxil olan məlumatda deyilir: "Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, sentyabrın 16-sı axşamdan başlayaraq 18-i gündüzədək ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, güclü külək əsəcəyi, müəyyən yerlərdə leysan xarakterli intensiv yağış yağacağı və şimşək çaxacağı, bəzi dağ çaylarından qısamüddətli sel keçəcəyi proqnozlaşdırılır.

Qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, gözlənilən hava şəraiti ilə əlaqədar müvafiq təhlükəsizlik qaydalarına riayət etməyə çağırır.

Belə ki, güclü küləyin səbəb ola biləcəyi təhlükələrdən qorunmaq üçün diqqətli davranaraq yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Güclü külək zamanı, xüsusilə açıq hava şəraitində baş verən yanğınların söndürülməsi mürəkkəbləşdiyindən yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir.

Həmçinin, bəzi dağ çaylarından qısamüddətli sel keçməsi ehtimalı ilə əlaqədar sel təhlükəli ərazilərdən uzaq durmaq, bu təhlükə ilə üzləşdikdə dərhal yaxınlıqdakı yüksəkliyə qalxmaq tövsiyə olunur.

İldırımın səbəb ola biləcəyi təhlükələrdən qorunmaq üçün elektrik cihazlarını şəbəkədən ayırmaq, telefonla (sabit şəbəkə, mobil, taksofon və s.) danışmamaq, açıq havada olarkən elektrik xətti, ildırım ötürücüsü, navalça və antenaya yaxınlaşmamaq, daldalanmaq üçün hündür ağacların altında gizlənməmək və bu məqsədlə çökək yer seçmək, avtomobildə olduqda hərəkəti dayandıraraq şüşələri qaldırıb ildırımın bitməsini gözləmək tövsiyə edilir.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin!".



## Vilayət Eyvazov DYP rəisini vəzifəsindən azad etdi

***Füzuli Rayon Polis Şöbəsinin (RPŞ) Dövlət Yol Polisi (DYP) bölməsinin rəisi, polis mayoru Koroğlu Quliyev tutduğu vəzifədən azad edilib.***

Unikal.org-un əldə etdiyi məlumata görə, bununla bağlı Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Nazirin digər əmri ilə, o, Füzuli RPŞ-nin baş əməliyyat müvəkkili vəzifəsinə təyinat alıb.

Hələlik Füzuli DYP-nin rəisi vəzifəsinə təyinat yoxdur.

*Murad İbrahimli*

## Zakir Həsənov pakistanlı generala başsağlığı verdi



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Pakistan İslam Respublikası Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razaya başsağlığı ünvanlayıb.***

Unikal.org xəbər verir ki, başsağlığında deyilir: "Cənubi Vəziristan əyalətinin Asman Manza bölgəsində kəşfiyyat əsaslı antiterror əməliyyatı zamanı qardaş Pakistan Silahlı Qüvvələrinin hərbi qulluqçularının həlak olması və yaralanması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olanlara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və səbr diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm".

## Azərbaycanda yüksək vəzifəyə təyinat

***Ruslan Mirzəliyev Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin (DOST) İdarə Heyətinin sədrinə müşavir təyin edilib.***

Bu barədə "Unikal"a Agentlikdən məlumat verilib. Bildirilib ki, R.Mirzəliyev buna qədər DOST Agentliyinin Könüllülərlə iş şöbəsinin müdiri kimi çalışıb. Eyni zamanda o, "Yüksəliş" müsabiqəsinin qaliblərindəndir.

Qeyd edək ki, hazırda DOST-un İdarə Heyətinin sədri Fərid Məmmədovdur.

## Azərbaycanda kurrikulum sadələşdiriləcək - RƏSMİ

***"Məktəblərdə qiymətləndirmə konsepsiyasına yenidən baxırıq. Ola bilsin hansısa qiymətləndirmə azaldılıb, daha az sayda mərkəzləşdirilmiş imtahanlar keçirilsin".***

Unikal.org xəbər verir ki, bunu Təhsil İnstitunun direktoru Rüfət Əzizov "Media və təhsil dialoqu" mövzusunda keçirilən təlimdə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, növbəti illərdə kurrikulum daha da sadələşdiriləcək.



# Sabiq deputatdan indiki deputata etiraz

***Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqal Şurasının sədri, Kooperasiya Unversitetinin həmtəsiscisi və rektoru Eldar Quliyevin Aİ-95 və Aİ-98 markalı benzinin bahalaşması ilə bağlı açıqlaması sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub.***

"İstənilən halda, ölkənin vəziyyətini nəzərə almaq lazımdır. Xərclər çoxdur, istər Vətən müharibəsi, istərsə də koronavirus pandemiyası xərclərimizi xeyli artırdı. Həmçinin, Qarabağın yenidən qurulması və bərpası istiqamətində də ciddi işlər gedir ki, bu da, xərc tələb edir" deyə E.Quliyevin "15 qəpiklə heç kim kasıblamaz" sözlərinə etiraz edənlərdən biri də sabiq deputat Xeyrəddin Qoca olub.

"İnsanlar 15 qəpiklə kasıblamırlar, 1 litr benzini 1 manat 60 qəpiyə almaqla kasıblayırlar!" deyə X.Qoca deputata etirazını ifadə edib.

Xatırladaq ki, 15 sentyabr 2021-ci il tarixindən Azərbaycanda "Aİ-95" premium markalı benzinin qiyməti 1 manat 45 qəpikdən 1 manat 60 qəpiyə, "Aİ-98" super markalı benzinin qiyməti isə 1 manat 60 qəpikdən 1 manat 90 qəpiyə qaldırılıb.

# Xarkovda Nizami Gəncəvinin abidəsi ucaldıldı



***"Nizami Gəncəvi İli" çərçivəsində Ukraynanın ikinci ən böyük şəhəri olan Xarkovda Ukrayna-Azərbaycan dostluğu küçəsində Azərbaycan poeziyasının klassiki, filosof və Orta əsr Şərqinin fikir adamı Nizami Gəncəvinin abidəsinin açılışı baş tutub.***

Azərbaycanın Xarkov şəhərindəki konsulluğundan "Unikal"a verilən xəbərə görə, Nizami abidəsinin müəllifi Ukraynanın xalq rəssamı, azərbaycanlı Katib Məmmədovdur.

Abidənin və onun yerləşdiyi parkın yenidən qurulması işləri Azərbaycanın Xarkov şəhərində fəxri konsulu Əfqan Salmanov tərəfindən həyata keçirilib.

Abidənin açılış mərasimində mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Milli Məclisin deputatı Rüfət Quliyev və Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova iştirak edib.

Abidənin yerləşdiyi park Dəmiryolu Universiteti və Aqrar Universitetin arasında yerləşir.

Azərbaycanın fəxri konsulluğunun təşkilatçılığı ilə Xarkov Filarmoniyasının Orqan zalında Nizami Gəncəvinin xatirəsinə həsr edilmiş simfonik musiqi konserti də keçirilib. Konsertin dirijoru Yalçın Adıgözəlov olub.

# Əməkdar jurnalist xəstəxanaya yerləşdirildi

***"Yeni Təfəkkür" qəzetinin baş redaktoru, əməkdar jurnalist Şəmsiyyə Kərimova ağır vəziyyətdə Gəncədəki Modul tipli xəstəxanaya yerləşdirilib.***

Bu barədə onun dostları bildiriblər. Jurnalistin koronavirusa yoluxduğu qeyd edilir.

Şəmsiyyə Kərimovanın qardaşı 7 gün əvvəl xərçəng xəstəliyi səbəbindən dünyasını dəyişib. Jurnalist yeganə övladını da çoxdan itirib.

# Fazil Məmmədovun biznesi üzərində yenidən "qara buludlar" dolaşır

## "Unikal"ın yazdıqları bir daha təsdiqlənir: keçmiş Vergilər naziri tam iflasın bir addımlığındadır

***Bu günlərdə yerli media xəbər verdi ki, keçmiş Vergilər naziri Fazil Məmmədov işdən çıxarıldıqdan bir müddət sonra biznesinin başına keçsə də, nəzarətində olan kommersiya qurumlarını idarə edə bilmir. Belə ki, eks- nazirin biznes strukturları ard-arda iflasa uğrayır, ən yaxşı halda isə məhkəmə çəkişmələrinə cəlb edilir. Buna misal olaraq "AtaBank"ın iflasını və bir neçə şirkəti özündə birləşdirən "Synergy Group" Holdinqin artıq çökmə həddində olduğunu göstərmək olar.***



Digər tərəfdən isə Fazil Məmmədovun şirkətləri ard-arda məhkəməyə verilir. Bu günlərdə keçmiş nazirin daha bir şirkəti barəsində məhkəmə iddiası qaldırılıb. Söhbət "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətindən (ASC) gedir. ASC barəsində Bakı Kommersiya Məhkəməsində iddia qaldırılıb. Abuşov Vilayət Musa oğlu tərəfindən qaldırılan iddia hakim Zeynəb Axundovanın icraatındadır. Açıq mənbələrdə məhkəmə çəkişməsinin səbəbi barədə dəqiq bilgi yoxdur. Bircə o məlumdur ki, ASC-nin məhkəməyə verilməsi üzərinə düşən öhdəlikləri yerinə yetirməməsi ilə bağlıdır.

"AtaSığorta" ASC 2004-cü il iyul ayının 21-də rəsmi dövlət qeydiyyatından keçib və həmin ilin sentyabr ayının 3-dən etibarən tam lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Şirkətin təsisçisi "AtaHolding" MMC-dir. ASC-nin nizamnamə kapitalı 14,6 milyon AZN təşkil edir.

Qeyd edək ki, hələ bir neçə ay əvvəl "Unikal" olaraq sabiq Vergilər nazirinin Azərbaycandakı biznesinin tam çökmə ərəfəsində olduğunu, bu səbəbdən də onun xaricdəki biznesini gücləndirmək üçün çapaladığını yazmışdıq. Qeyd eləmişdik ki, F.Məmmədov hətta ölkə daxilindəki biznesinin qalıqlarını da xarici ölkələrə köçürmək üçün çalışır.

Xatırladaq ki, keçmiş nazir hələ əvvəldən xaricdə geniş biznes şəbəkəsi yaradıb. Məsələn, onun Ukrayna paytaxtında 5 ulduzlu oteli, siqaret, təkər zavodu və böyük bazarı var. Kiyevdəki otel "11 Mirrors Design Hotel" adlanır. F.Məmmədovun Kiyevdəki "Vladimirski" bazarı isə sabiq "vergi şefi"nin xaricdəki böyük biznesinin kiçik bir parçasıdır. Kiyevdəki bazarlar arasında böyüklüyünə görə ilk üçlükdə olan bu bazarda paltar və meyvə-tərəvəz satılır. Ukraynadakı təkər zavodunun 49 faizi, Xarkov siqaret zavodunun səhmlərinin 41 faizi də sabiq nazirə məxsusdur. Sabiq nazirin Ukraynanın kurort şəhəri Truskovetsdə də olduqca lüks oteli var. Vaxt var idi Fazil müəllim ölkə daxilində də geniş biznesə malik idi. Əlbəttə, o, bu biznesi tutduğu önəmli postun ona verdiyi imkanlar və imtiyazlar hesabına yaratmışdı. Məsələn, keçmiş "vergi şefi" ata yurdu Şəmkirdə hər tində bir müəssisə, fabrik, istixanalar, quşçuluq fabrikləri və s. buna bənzər gəlir mənbələri yaratmışdı. Lakin vəzifədən çıxarıldıqdan sonra eks-nazirin biznesi də qara günlərini yaşamağa başladı. Bir çox şirkətləri fəaliyyətini dayandırdı, ləğv edildi, ya da onun nəzarətindən çıxarıldı. Hətta bu ilin əvvəllərindən etibarən F.Məmmədovun bir sıra obyektlərini satmağa start verdiyi də deyilirdi. Bu sırada məşhur "Elselsior" (Excelsior) otel şəbəkəsinin olduğu da söylənilirdi. İddialara görə, hazırda Şəmkirdəki malikanəsində yaşayan və səhhəti normallaşan eks nazirin bundan sonra bütün diqqətini xaricdəki biznesini genişləndirməyə yönəltməkdən başqa yolu qalmayıb.

Cəmiyyətdə isə belə hesab olunur ki, eks-nazirin vəzifədə olduğu dövrlə bağlı korrupsiya araşdırmalarının aparılması və onun da bir çox sabiqlər, məsələn, Səlim Müslümov kimi cəzalandırılması lazımdır. Axı hər kəs bilir ki, F.Məmmədov vəzifəsindən sui-istifadə edərək, dövlət vəsaitləri, korrupsiya hesabına böyük miqdarda pul toplayıb, biznes imperiyası qurub. Onun vergilər naziri postunda olduğu dönəmdə ölkədəki vergi sistemi məhz özünün varlanmasına xidmət edirdi. Bu, ölkə iqtisadiyyatında durğunluq yaratdığı halda keçmiş nazirin sərvəti üstünə sərvət gətirirdi. Belədə keçmiş "vergi şefi"nin hüquqi məsuliyyətə cəlb edilməməsi mümkündürmü? Çətin ki, aranızdan kimsə bu suala "xeyr" cavabı versin...

***Toğrul Əliyev***

# Azərbaycanda bahalaşma sürətlənib: Ekspert səbəbləri açıqladı

***"Apardığımız müşahidələrə əsasən hətta böyük marketlərin birində 900-dən çox məhsulun qiymətində artımlar baş verir. Təbii ki, ən çox neft, çörək, yağ gündəmdə olduğuna görə, biz bunlar haqqında danışırıq. Amma şampunlar, yuyucu tozlar, uşaq bezləri, diş məcunları və digər məshullarda qiymətlər bir neçə dəfə artıb".***



Bunu Bakıvaxtı.az-a açıqlamasında İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev deyib. İqtisadçı-ekspert qeyd edib ki, bahalaşmanın bir çox səbəbləri var: "Azərbaycana idxal olunan məhsulların mənbə ölkəsində qiymətlər qalxıb, ölkə daxilində sahibkarların xərcləri artıb, koronavirus pandemiyası ilə bağlı sahibkarların öhdəlikləri və xərcləri artıb. Dövlət tərəfindən bir neçə xeyriyyə fondu yaranıb və sahibkarlıq subyektləri həmin fondlara pul köçürürlər. Bunlar da qiymətin artmasına səbəb olur. Qiymətlər artanda işçilər də əmək haqlarının artmasını istəyirlər. Bütün bu xərclər məhsulun maya dəyərinin qiymətinə təsir göstərir.

Ölkədə kapital bazarı çox dardır. Kapital bazarında əsasən kreditlər iştirak edirlər. Kreditin şərtləri və faiz dərəcələri istər-istəməz məhsulun maya dəyərinə təsir göstərir. Daşınma xərcləri də qiymətləri artırır.

Müxtəlif vergi və gömrük dərəcələri var ki, onlar da istehsalın qiymətinə təsir göstərir. Ölkədə rəsmiləşmə və şəffaflaşma işləri həyata keçirilir. Əvvəllər sahibkarlar qeyri-şəffaf işləyirdilər. İndi şəffaflaşma artıb deyə rəsmi şəkildə işçilər işə götürülür, rəsmi şəkildə verilən vergilər və sosial ödəmələr xərcləri artırır".

# Məmurların bahalaşma oyunu

## Həftənin replikası: ölkədə qiymət artımına kimlər rəvac verir?



***Yola salmaq üzrə olduğumuz həftə Azərbaycanda Aİ-95 markalı benzinin qiyməti 1.60, Aİ-98-in qiyməti isə 1.90 AZN-dək yüksəldi. Bu bahalaşma cəmiyyətin müxtəlif təbəqələrində haqlı olaraq narazılıq yaratdı, hətta bəzi deputatlar da bu qiymət artımına qarşı çıxdılar.***

"Benzini il ərzində neçə dəfə bahalaşdırmaq olar? Açığı mən artım gözləmirdim, çünki artım hələ bir neçə ay əvvəl olmuşdu" deyən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov SOCAR-ın benzinin qiymətinin bahalaşması ilə bağlı verdiyi açıqlamadakı izahı da anlaşılmaz adlandırıb: "Hər dəfə də izah edirlər ki, Azərbaycanda istehsal edilmədiyi, xaricdən idxal olunduğu üçün qiymətlər artırılır. Neçə illərdir eyni şablon açıqlama verilir. Azərbaycan neft ölkəsidir. İdxal baha başa gəlirsə, zavod tik, öz ölkəndə istehsal et. Ölkədə ən çox işlənən Aİ-92 və Aİ-95 markalı benzinlərdir. Niyə bu vaxta qədər zavod tikib bu benzini özümüz istehsal etmirik ki, qiymətlər də belə yüksək olmasın?!

Məntiqlə neft bahalaşır deyə, xaricdən idxal ediləni bahalaşdırırlarsa, daxildə istehsal edilən Aİ-92 markalı benzini də ucuzlaşdırmalıdırlar. Amma bizdə qiymətin aşağı salınması görünməmiş şeydir. Bu gedişlə mən gözləyirəm ki, Aİ-92-ni də bahalaşdırsınlar".

İqtisadçı ekspertlər isə haqlı olaraq vurğulayırlar ki, məlum qiymət artımını yalnız benzinin bahalaşması kimi dəyərləndirmək doğru deyil. Çünki bu, ərzaqdan tutmuş qeyri-ərzağa qədər, bütün sahələrə təsir edəcək, insanların həyat şəraitinə mənfi təsir göstərəcək. Onsuz da ölkədə istənilən məhsulun qiyməti günbəgün yüksəlir. Benzinin bahalaşması isə həmin prosesə bir az da təkan verəcək.

Dövlət Statistika Komitəsi bir müddət əvvəl məlumat yaydı ki, 2021-ci ilin yanvar-iyul aylarında istehlak qiymətləri indeksi (inflyasiya göstəricisi) 2020-ci ilin yanvar-iyul aylarına nisbətən 4,5 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 5,1 faiz, qeyri-ərzaq məhsulları üzrə 4,1 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 3,9 faiz artıb. Hətta rəsmi statistika da ölkədəki bahalaşma tendensiyasını gizlədə bilmirsə, deməli, məsələ düşündüyümüzdən də ciddidir.

Belədə benzinin bahalaşmasını hansı məntiqlə izah etmək olar? Həm də bu bahalaşmanın digər sahələrdəki qiymət artımlarını körükləyəcəyi açıq-aydın bilindiyi halda!

Üstəlik, hazırda dünya bazarlarında neft qiymətləri yüksəkdir, yüksəlməyə davam edir; bu isə o deməkdir ki, Azərbaycana daxil olan valyutanın həcmi kifayət qədərdir, pul dövriyyəsində çətinliyimiz yoxdur, manatın məzənnəsi stabildir. O zaman axı bahalaşmaya nə ehtiyac var?

Ən əsası qiymət artımı ilə bağlı qərar verən vəzifəli şəxslərin çox bəsit "arqumentlərlə", bəhanələrlə bahalaşma qərarları verməsinin səbəbi nədir? Onlar, doğrudanmı, həmin qərarların vətəndaşlarda narazılıq əhval-ruhiyyəsini gücləndirməsindən bixəbərdirlər?!

Yoxsa, kimlərəsə cəmiyyətdə etiraz ovqatının güclənməsi lazımdır. Əgər belədirsə, görəsən, niyə?...

P.S. Düzdür, bu gün bazarda baş verən qiymət artımlarını "təbii bahalaşma" hesab edənlərə də rast gəlinir. Belələrinin fikrincə, hökumət bu tendensiyanın qarşısını inzibati yolla ala bilməz. Çünki həmin cəhdlər iqtisadiyyatı, sahibkarları ciddi problemlərlə üzləşdirə bilər.

Lakin hətta bu cür düşünənlər də hesab edirlər ki, bahalaşmadan sığortalanmaq üçün yalnız əhalinin gəlirləri artırılmalı və bundan ötrü müvafiq addımlar atılmalıdır. Əməkhaqları, pensiya, sosial müavinət və ödənişlər yüksəldilməlidir. Başqa çıxış yolu yoxdur...

***Toğrul Əliyev***

# Mədəniyyət Nazirliyi teatrların açılması üçün Operativ Qərargaha müraciət etdi

***Mədəniyyət Nazirliyi teatrların açılması ilə bağlı məlumat yayıb. "Unikal" xəbər veri ki, məlumatda deyilir: "İctimaiyyətə məlum olduğu kimi, iki ilə yaxındır, dünya ölkələrinin qlobal probleminə çevrilən pandemiya bütün sahələrə, xüsusən mədəniyyət sahəsinə öz mənfi təsirini göstərib.***

Etiraf etməliyik ki, bu baxımdan ən çox zərər çəkən sahə teatr, kino sahəsidir. Bu gün kinoteatrların, teatr-konsert müəssisələrinin fəaliyyətinin bərpa olunması Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin, xüsusən mədəniyyət nazirinin şəxsi diqqətindədir. Öncə də bildirdiyimiz kimi, pandemiya şərtlərinə əməl edilməklə, kinoteatrların, teatr-konsert müəssisələrinin fəaliyyətinin qismən bərpasına icazə verilməsi ilə bağlı tərəfimizdən Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargaha müraciət ünvanlanıb.

Qeyd edək ki, hazırda davam



edən Bakı Caz Festivalının, ötən il online formatda keçirilən Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının böyük məhdudiyyətlərlə olsa da, bu il canlı keçirilməsinə nail olmuşuq. Hazırkı şəraiti nəzərə alaraq, bu fakt özü özündə ölkə rəhbərliyinin məsələyə verdiyi önəmin bir göstəricisidir.

Bu festivallar bizim üçün bir sınaq rolunu oynayır. Belə ki, gedişat uğurlu olarsa, bunu teatr-konsert müəssisələrinin açılmasına yönəlik müsbət addım hesab etmək olar. Doğrudur, teatr-konsert müəssisələrində fəaliyyət göstərən əməkdaşların böyük əksəriyyəti vaksinasiyadan keçmişdir. Ancaq bu işdə təkcə müəssisələrə deyil, vətəndaşlarımızın da üzərinə sosial məsuliyyət düşür. Vaksinasiya prosesində uğurlu nəticələr əldə edildikdən sonra kinoteatrların, teatr-konsert müəssisələrinin fəaliyyətinin ənənəvi qaydada bərpa ediləcəyinə ümid edirik.

İnanırıq ki, bu bəla xalqımızın başı üzərindən sovuşacaq və ölkəmizdə həyat tezliklə öz axarına qayıdacaq. Amma hələ ki, bu real təhlükə mövcuddur və dövlətimiz ilk növbədə əhalinin sağlamlığını düşünməyə məcburdur".



# Baş nazir dəyişiklik etdi

## Un istehsalçılarına subsidiyanın verilməsi qaydası müəyyənləşdi

***2021-ci il sentyabrın 1-dən dayanıqlı mexanizm formalaşdırılanadək un istehsalçılarına satılan unun hər tonuna görə ödənilməli subsidiyanın məbləğinin necə hesablanacağı və kimlərə subsidiya veriləcəyi müəyyənləşib.***

Unikal.org-un məlumatına görə, bu, Baş nazir Əli Əsədovun "Ərzaqlıq buğdanın idxal qiymətinin artmasının ölkə daxilində satılan un və un məmulatlarının qiymətinə mənfi təsirlərinin azaldılması ilə bağlı əlavə tədbirlər barədə" qərara etdiyi dəyişiklikdə əksini tapıb.

Qərara əsasən, un istehsalçıları tərəfindən satılan unun hər tonuna görə un istehsalçılarına verilən subsidiyanın hesablanması üçün bir ton unun topdansatış qiymətinin yuxarı həddi 520 (beş yüz iyirmi) manat, un istehsalçısının ölkədaxili xərclər daxil olmaqla marjası bir ton unun topdansatış qiymətinin yuxarı həddinin 25 faizi həcmində müəyyən ediləcək.

Eyni zamanda, un istehsalçıları tərəfindən satılan unun hər tonuna görə un istehsalçılarına ödənilməli subsidiyanın məbləği bu Qərara əsasən müəyyən olunan orta aylıq idxal dəyərinə bu Qərarla müəyyən edilən həcmdə un istehsalçısının marjası əlavə edilməklə hesablanmış məbləğlə müəyyən edilən bir ton unun topdansatış qiymətinin yuxarı həddi arasındakı fərq məbləğində müəyyən ediləcək.

Un istehsalı ilə məşğul olan şəxslər tərəfindən un bu qərarla müəyyən edilən topdansatış qiymətinin yuxarı həddindən artıq qiymətə satıldıqda, subsidiyanın məbləği həmin fərq qədər azaldılacaq.

Qərara edilən dəyişikliyə əsasən, idxal olunan ərzaqlıq buğdanın həcmində ən yüksək paya malik olan ölkə üzrə məlumatlar əsasında 3-cü sinif ərzaqlıq buğdanın orta aylıq qiymətinin üzərinə həmin ölkənin tətbiq etdiyi ixrac rüsumunun orta aylıq məbləğini əlavə edərək, Mərkəzi Bankının həmin dövrün sonuna müəyyən etdiyi rəsmi məzənnə əsasında ərzaqlıq buğdanın orta aylıq idxal dəyərini hesablanacaq.

Subsidiya verildiyi müddətdə dünya birjalarında ərzaqlıq buğdanın qiymətlərinin monitorinqini aparsın və əldə edilmiş məlumatların ayda bir dəfə taxıl idxalçılarına çatdırılmasını təmin ediləcək. Maliyyə Nazirliyi bu Qərara uyğun olaraq tələb olunan subsidiya məbləğinə dair İqtisadiyyat Nazirliyinin məlumatları əsasında subsidiyanın ödənilməsi məqsədilə maliyyələşmə mənbələri barədə təkliflərini Nazirlər Kabinetinə təqdim etməlidir.

Əvvəl bu müddət 2021-ci il 1 iyun tarixinədək nəzərdə tutulmuşdu.

İqtisadiyyat Nazirliyi Maliyyə Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyi və "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti ilə birlikdə ərzaqlıq buğda ehtiyatının yaradılması və dünya birjalarında buğda qiymətlərinin ölkədaxili buğda qiymətlərinə təsirinin azaldılması üçün müvafiq tənzimləmə və nəzarət üzrə dayanıqlı mexanizmin formalaşdırılmasına dair təkliflərini 2021-ci il dekabrın 31-dək Nazirlər Kabinetinə təqdim edəcək.



## Məhkəmə jurnalisti ev dustaqlığına buraxmadı

***Bakı Apellyasiya Məhkəməsində "Azadinfo. az saytının rəhbəri, hazırda həbsdə olan Mahir Ələkbərovun (Xəttab) barəsində olan həbs qəti imkan tədbiri ilə bağlı Binəqədi rayon məhkəməsinin qərarından verilən apellyasiya şikayətinə baxılıb.***

Unikal.org-un məlumatına görə, prosesdə şikayət araşdırılsa da təmin edilməyib. Məhkəmə Mahir Ələkbərovun ev dustaqlığına buraxılmasını məqbul saymayıb.

Xatırladaq ki, Mahir Ələkbərov (Xəttab) sentyabrın 9-da axşam saatlarında Yeni Azərbaycan Partiyasının Binəqədi rayon şöbəsinin sabiq sədri Ramiz Göyüşovdan 2 min manat alarkən Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşları tərəfindən saxlanılıb. Onun barəsində Cinayət Məcəlləninin 182.1-ci (hədə-qorxu ilə tələb etmə) maddəsi ilə cinayət işi başlanıb, Binəqədi rayon məhkəməsinin qərarı ilə 3 ay həbs qətimkan tədbiri seçilib.

## Prokurorluq iş yoldaşını öldürən şəxslə bağlı MƏLUMAT YAYDI

***2021-ci il iyulun 04-də Mingəçevir şəhər sakini 2003-cü il təvəllüdlü Məhəmməd Alıyevin bıçaqla vurularaq çoxsaylı bədən xəsarətləri ilə Mingəçevir şəhər mərkəzi xəstəxanasına daxil olması və aldığı bədən xəsarətlərindən ölməsi faktı üzrə Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə şəhər prokurorlug?unda cinayət işi başlanaraq istintaq aparılıb.***



Mingəçevir Şəhər Prokurorluğundan Unikal.org-a verilən məlumata görə, istintaqla müəyyən edilib ki, zərərçəkmişin iş yoldaşı Kənan Osmanov şəxsi münasibətlər zəminində aralarında yaranmıs? mu?bahisə zamanı Məhəmməd Alıyevi turistik bıçaqla onun bədəninin müxtəlif nahiyələrinə zərbələr endirərkən, onun müvazinətinin itdiyini hiss etməsinə baxmayaraq xüsusi ağrılar, əzab və əziyyət verdiyini dərk etməklə, ümumilikdə 6 bədən xəsarəti yetirib onu qəsdən öldürüb.

Kənan Osmanov Cinayət Məcəlləsinin 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Şəki Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

# AFFA-nın Elxan Məmmədov problemi...

### Futbol üzrə Azərbaycan millisinin uğursuz çıxışlarının əsas günahkarı baş məşqçidir, yoxsa Baş katib?

***Son zamanlar Azərbaycan millisi yenidən əldə etdiyi nəticələrlə, sərgilədiyi oyunla tənqid hədəfindədir. Təəccüblü deyil: "cırtan ölkə" Lixtenşteynə belə məğlub olan yığmamız artıq gələcəklə bağlı da ümid verməməyə başlayıb.***

Ölkənin idman ictimaiyyətinin, o cümlədən, ekspert və yazarların bir çoxu isə bu fikirdə həmrəydir: Azərbaycan millisinin uğursuz çıxışlarının kökünü futbolçularda, ya da baş məşqçilərdə axtarmaq gərəksizdir. Uğursuzluğun kökündə ölkənin futbol təsərrüfatını idarə edən, daha doğrusu, idarə etdiyini düşünən AFFA dayanır. Bir az da konkretləşdirsək, bu qurumun Baş katibi Elxan Məmmədov!




Gəlin tarixə kiçik bir ekskurs edək.

Son illərdə Azərbaycan yığmasının baş məşqçi postuna kimlər gətirilməyib ki? Qurban Qurbanov, Berti Foqts, Robert Prosinečki...

AFFA-nın maraqlı tapıntılarından biri Nikola Yurçeviç idi. Azərbaycana gələnə qədər baş məşqçi kimi heç bir uğura, hətta təcrübəyə sahib olmayan xorvatiyalı mütəxəssis böyük ümidlərlə təşrif buyurdu, elə eyni məyusluqla da vətəninə yola salındı. Onun rəhbərliyi altında macarlar, slovaklar evimizin içində, doğma meydanımızda bizi acınacaqlı məğlubiyyətlərə uğratdılar. Düşünürdük ki, barı Yurçeviç fiaskosundan sonra AFFA rəhbərliyi vəziyyəti düzgün analiz edər, yaxşıca düşünər, nəhayət anlayar ki, Azərbaycan millisinin nəticələrini yaxşılaşdırmaq üçün ilk növbədə bu qurumun yanlış siyasətini dəyişdirmək lazımdır. Lakin "sən saydığını say, gör fələk (oxu: AFFA) nə sayır"...

Assosiasiya rəhbərliyi bu dəfə də baş məşqçi postuna italyan Canni de Byazini gətirdi. İdman yazarlarından birinin haqlı olaraq vurğuladığı kimi: "Bakıya ilk gəlişindən sonra pafoslu açıqlamalarını muncuq kimi düzən, Albaniya millisiylə qazandığı uğuru hər kəlmədə vurğulayan De Byazi çox keçmədən hara gəldiyinin fərqinə vardı. Yavaş-yavaş pafos azaldı, De Byazi və dəstəkçiləri göydən yerə endi. Başa düşdülər ki, Azərbaycan Albaniya deyil, bizim millinin üzvləri Avropanın çeşidli klublarında oynamırlar, onlar 8 komandalı Azərbaycan premyer-liqasında günlərini keçirirlər. Belədə böyük məqsədlərdən, ardıcıl uğurlardan danışmaq da yersiz məşğuliyyətdi. Təsadüfi deyil ki, bu yaxınlarda De Byazi ölkəsinin mətbuatına müsahibəsində acı reallığı dilə gətirmiş, Azərbaycan millisinin qrupda sonuncu olacağı barədə etiraflara müəlliflik etmişdi. Çox keçmədi ki, italyan mütəxəssis dediklərini təkzib etdi. Şəxsən mən italyalı həmkarlarımızın bu boyda qəbahətə yol verib, De Byazinin sözlərini təhrif edəcəyinə heç inanmıram. Onların bizimlə nə qəsdi-qərəzi?!"

Nəticə göz önündədir: ürək ağrısı ilə demək lazımdır ki, futbol millimiz artıq Lixtenşteyn kimi hədsiz zəif yığmalar qarşısında belə aciz qalıb. Bu cür davam etsə (Elxan Məmmədov Baş katib postunda qaldığı müddətdə elə bu cür davam edəcəyi də gözlənilir!) sabahbirigün San-Marino, Cəbəllütariq kimi gələnin-gedənin hər matçda beş-altı qol vurduğu "cırtan" yığmalar belə Azərbaycan millisi üzərində qələbələr qazanıb özləri üçün tarix yazacaqlar.

Bəli, nə yazıq ki, əvvəllər Lixtenşteyn kimi rəqiblərə "cırtdan" gözüylə baxır, onları udacağımızı əminliklə iddia edirdik. İndi isə hətta bu cür ölkələrin yığmaları ilə oyundan öncə ehtiyatlanır, heç-heçənin yaxşı nəticə olacağını düşünməyə başlayırıq.

Bu biabırçılığın "memarı" olan AFFA rəhbərliyi isə öz yanlış siyasətindən əl çəkmir ki, əl çəkmir! Elxan Məmmədov və ətrafındakılar anlamaq istəmirlər ki, problem yığmanın başına gətirilən mütəxəssislər deyil. Baş məşqçi dəyişikliyi ilə millimizin oyununda, nəticələrində yaxşılığa doğru dəyişiklik baş verəcəyini gözləmək boş işdir. Uğura nail olmağın yolu Elxan Məmmədov və ətrafındakıların ölkə futboluna indiyə qədərki yanlış, daha çox şəxsi maraq və mənfəətlərə hesablanmış yanaşmasının dəyişməsindən keçir. Əlbəttə, ən yaxşısı elə AFFA rəhbərliyində dəyişiklik olardı, lakin bu mümkün deyilsə, Baş katib və komandası barı eyni səhvləri təkrarlayıb sonda düzü tapacaqlarına ümid eləməkdən çəkinməlidirlər.

Azərbaycan millisi hər birimizindir. Azərbaycan millisi Azərbaycan futbolunun şərəfidir. Onu belə biabırçı oyuna, nəticələrə məhkum eləmək yolverilməzdir, qəbahətlərin ən böyüyüdür. Buna kimsənin, - başda da Elxan Məmmədov və ətrafının - əsla və əsla haqqı yoxdur!

***Sənan Mirzə***

# ADU-da "Britaniya uşaq folkloru: poeziya" adlı dərs vəsaiti işıq üzü gördü

***Azərbaycan Dillər Universitetinin Filologiya fakültəsinin dekanı, professor Şahin Xəlillinin və Azərbaycan Universitetinin rektoru Səadət Əliyevanın məqalələrdən və xalq lirikasına aid tərcümələrdən ibarət "Britaniya uşaq folkloru: poeziya" adlı dərs vəsaiti işıq üzü görüb.***

Unikal.org xəbər verir ki, kitabın elmi redaktoru akademik Muxtar İmanov, redaktoru isə filologiya üzrə fəlsəfə doktoru Fialə Abdullayevadır. Dərs vəsaitinin rəyçiləri Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, filologiya elmləri doktoru, professor Rafiq Yusifoğlu və filologiya elmləri doktoru Elnarə Akimovadır.




Dərs vəsaitində ayrı-ayrı ingilis və amerikan nəşrlərindən seçilmiş Britaniya uşaq şeirlərinin və nəğmələrinin orijinal mətnləri, onların ingilis dilindən Azərbaycan dilinə tərcümələri, eləcə də "Ana Qaz" adı ilə ədəbiyyat tarixində yaxşı tanınan əfsanəvi şairənin şeirləri və digər nəşrlər barədə elmi-ədəbi esselər, şərhlər təqdim edilib. Britaniya ədəbiyyatı tarixi, xüsusilə onun mühüm sahələrindən biri olan uşaq folkloru - poeziyası məsələləri araşdırılıb, şeirlərin təhlili verilib.

Kitabın ön söz müəllifləri akademik Muxtar İmanov və professor Kimberli Reynoldsdır. Filologiya üzrə fəlsəfə doktoru Fialə Abdullayeva isə kitabda "Könüllərdə bardaş quran uşaq folkloru: poeziya, tərcümələr və esselər barədə bir neçə söz" adlı redaktor sözü yazıb.

"Britaniya uşaq folkloru: Poeziya" adlı dərs vəsaiti ali məktəblərin filologiya və təhsil fakültələrinin bakalavriat pilləsinin tələbələri üçün nəzərdə tutulub.

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İdman-olimpiya komplekslərinin yeni nəsil idmançıların yetişməsində rolu varmı?

### Qabil Mehdiyev: "Nazirliyin tabeliyində olan bütün komplekslərdə olimpiya idman növləri üzrə məşğələlər ödənişsizdir"



***Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin etdikdən sonra idman sahəsində buraxılan bir sıra nöqsanlara toxunub. Prezident rayonlarda tikilib istifadəyə verilən idman-olimpiya komplekslərinin fəaliyyətinin ciddi təftiş edilməli olduğunu söyləyib. Bu komplekslərin yeni idmançıların yetişdirilməsində fəaliyyətsizliyini tənqid edib.***

Prezident öz çıxışında bildirib ki, idman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır: "Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin.Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdı", - deyə İlham Əliyev vurğulayıb.

Nazirliyin baş məsləhətçi-mətbuat katib Qabil Mehdiyev bildirib ki, ölkə üzrə 48 idman-olimpiya kompleksi var. Onlardan sonuncusu iyulun 22-də istifadəyə verilən Goranboy Olimpiya İdman Kompleksidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak edib. Burada prezidentə məlumat verilib ki, inşasına 2014-cü ildə başlanılan bu kompleksin ərazisi 3 hektardan çoxdur. Sahəsi 9137 kvadratmetr olan kompleksdə böyük idman korpusu yerləşir. Universal idman zalı 905 tamaşaçı tutumludur. Bu zal basketbol, voleybol, həndbol, mini-futbol idman növləri üzrə məşqlərin və yarışların keçirilməsinə imkan verir. Eyni zamanda, cüdo, taekvando, sambo, karate, kiqboksinq və digər idman növləri üzrə məşqlərin və yarışların keçirilməsi üçün nəzərdə tutulub. Kompleksə üzgüçülük hovuzu da daxildir. Burada 200-dən çox tamaşaçının yarışları izləməsi üçün hər cür şərait var. Həmçinin güləş, boks, fitnes-trenajor, aerobika, gimnastika və rəqs zalları, şahmat otağı, konfrans zalı və digər otaqlar yaradılıb. Ərazidə üçmərtəbəli, 44 yerlik mehmanxana da fəaliyyət göstərəcək. Burada da idmançıların və qonaqların istirahəti üçün bütün imkanlar var. Futbol stadionunun tribunası 1141 tamaşaçı yerlikdir. Bundan əlavə, iki mini-futbol meydançası da qurulub. Voleybol-basketbol meydançası, həmçinin uşaq əyləncə meydançası yaradılıb. Kompleksdə fiziki imkanları məhdud idmançılar və tamaşaçılar üçün də müvafiq şərait yaradılıb.

Göründüyü kimi, idman-olimpiya komplekslərində idmanın müxtəlif sahələri üzrə idmançı hazırlamaq üçün şərait var. Bəs görəsən bu komplekslərdən neçəsi təyinatı üzrə fəaliyyət göstərir?

Q. Mehdiyev bildirib ki, Gənclər və İdman Nazirliyinin tabeliyində olan idman-olimpiya komplekslərinin hamısı təyinatı üzrə fəaliyyət göstərir: " Yalnız iki olimpiya kompleksi - Abşeron və Hövsan kompleksləri Covid-19 pandemiyası ilə əlaqədar, müvəqqəti olaraq, modul tipli xəstəxanaya çevriliblər. Pandemiya bitdikdən sonra həmin qurğular da yenidən idmançıların istifadəsinə veriləcək".

Nazirlik səlahiyyətlisi onu da deyir ki, digər olimpiya komplekslərində məşğələlər davam etdirilir: "Yığma komandaların təlim-məşqləri əksər hallarda həmin komplekslərdə təşkil edilir. Yalnız, pandemiya dövründə Nazirlər Kabinetinin qərarlarına uyğun olaraq, uzun müddət digər idman qurğuları kimi, Olimpiya- idman kompleksləri də fəaliyyətsiz qalmışdılar və hazırda karantin qaydalarına uyğun olaraq, tədricən fəaliyyətlərini bərpa edirlər".

Onun sözlərinə görə, nazirliyin tabeliyində olan bütün komplekslərdə olimpiya idman növləri üzrə məşğələlər ödənişsizdir: "Yalnız qeyri-olimpiya növləri üzrə bölmələr abunəliklə fəaliyyət göstərir. Bu da təbiidir. Komplekslər təsərrüfat hesablı olduqları üçün xərclərinin bir hissəsini abunəli bölmələr hesabına ödəməli olurlar. Həmin vəsait də komplekslərin saxlanılmasına, kommunal xərclərə və əməkdaşların məvacibinə sərf edilir".

***Gülay Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Tələbə adını qazanan şəhid övladı ilə görüş keçirildi

***Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulması nəticəsində hər iki valideynini itirən Sevil Əliyeva tələbə adı qazanıb.***

Unikal.org xəbər verir ki, bu münasibətlə Gəncə Şəhər İcra Hakimiyyətində onunla görüş keçirilib.

Görüşdə Gəncə Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Səməd Tomuyev, şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, Aparatın böyük məsləhətçisi Azər İbrahimov, Gəncə İş Adamları İctimai Birliyinin sədri Zəfər Məmmədov, Gəncə Şəhər Təhsil İdarəsinin müdiri Anar Qədiməliyev iştirak ediblər.

Səməd Tomuyev Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun adından Sevil Əliyevanı Zəfər ilində tələbə adını qazanması münasibətilə təbrik edib. O bildirib ki, ölkə başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva şəhid ailələrini daim diqqət mərkəzində saxlayır. Şəhid övladları artıq bütün xalqın övladlarıdır deyən Səməd Tomuyev bildirib ki, Sevil Əliyeva və onun timsalında bütün şəhid övladları hər zaman dövlət qayğısı ilə əhatə olunacaqdır.

Tədbir iştirakçıları da öz növbələrində Sevili tələbə adı qazanması münasibətilə təbrik edərək ona Vətənə layiq övlad olmağı arzulayaraq, həyat yollarında uğurlar diləyiblər.

Görüşün sonunda Sevil Əliyevaya gül dəstəsi və planşet hədiyyə olunub.

Qeyd edək ki, Sevil Əliyeva Azərbaycan Do?vlət Aqrar Universitetinin Aqrar iqtisadiyyat faku?ltəsinə qəbul olub. Onun özündən yaşca balaca Hüseyn adlı qardaşı da var.

## Qarabağ Dirçəliş Fonduna SMS-lə ianə etmək imkanı

***Bakcell abunəçiləri üçün Qarabağ Dirçəliş Fonduna SMS vasitəsilə ianə etmək imkanı yaradılıb.***

Unikal.org xəbər verir ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa və yenidənqurma işlərinin həyata keçirilməsinə dəstək göstərmək istəyən abunəçilər öz mobil telefonlarından "8112" qısa nömrəsinə 1, 3, 5, 10, 20, 50 rəqəmlərini yazmaqla SMS göndərərək müvafiq olaraq, 1 AZN, 3 AZN, 5 AZN, 10 AZN, 20 AZN və 50 AZN məbləğində ianə edə bilərlər. Bakcell nömrələrindən SMS-lərin göndərilməsi üçün abunəçilərdən xidmət haqqı tutulmur!

Xatırladaq ki, bu ilin əvvəlində Bakcell şirkəti Qarabağ Dirçəliş Fonduna 1.4 milyon manat məbləğində vəsait köçürüb. Bakcell şirkətinin də daxil olduğu "NEQSOL Holding"in tərkibində olan şirkətlər tərəfindən bu fonda ümumilikdə ianə edilmiş məbləğ 2 milyon AZN təşkil edib.

Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 yanvar 2021-ci il tarixli fərmanı ilə yaradılıb. Fərmana əsasən, Qarabağ Dirçəliş Fondu Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir. (https://qdf.gov.az/)

Qarabağ Dirçəliş Fonduna digər platformalar vasitəsilə də ianə etmək mümkündür. Ətraflı: (<https://qdf.gov.az/iane-et/>)




## DGK əməkdaşı "Qlobal ekspertlər hövzəsi"nə üzv seçildi

***"Azərbaycanda "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması" üzrə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət yaradılmış işçi qrupuna Dövlət Gömrük Komitəsi tərəfindən rəhbərlik edilir.***

Unikal.org xəbər verir ki, işçi qrupunun əsas məqsədi Azərbaycanda beynəlxalq standartlara uyğun APİ/PNR sistemlərinin tətbiqi və bu çərçivədə qanunvericiliyin təkmilləşdirilməsi, bütün aidiyyəti dövlət qurumlarının tələb və funksiyalarına cavab verəcək vahid risk mexanizminin yaradılması, "Sərnişin Məlumat Mərkəzi" (PİU) və hüquq-mühafizə orqanları arasında əlaqələndirilmə təcrübəsinin öyrənilməsi, məlumatların düzgün emalı, o cümlədən səmərəli təhlili sahəsində potensialın gücləndirilməsi kimi uzunmüddətli hədəflərdən ibarətdir. Sözügedən məsələlərlə əlaqədar olaraq 2019-cu ildən etibarən Birləşmiş Millətlər Təşkilatının Terrorla Mübarizə İdarəsi ilə birgə fəaliyyət göstərilir.

Birləşmiş Millətlər Təşkilatı "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin dünya ölkələri tərəfindən beynəlxalq standartlara uyğun qurulması üçün "Qlobal ekspertlər hövzəsi" yaradıb və ümumilikdə, həmin bazaya dünya üzrə 40-a yaxın ekspert daxil edilib. Ekspertlər əsasən Amerika, Avropa və Avstraliyanı təmsil edir. Regiondan Azərbaycanı təmsilən Dövlət Gömrük Komitəsinin Beynəlxalq ticarətə dəstək şöbəsinin rəisi Rövşən Namazov da "Qlobal ekspertlər hövzəsi"nə daxil edilib. Gələcəkdə Azərbaycan, o cümlədən BMT təcrübəsinin digər ölkələr ilə paylaşılması, yaxud həmin ölkələrdə "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması prosesinə Rövşən Namazov DGK-nın və BMT-nin eksperti kimi cəlb olunacaq.

## DYP-dən yeni dərs ilinin başlanması ilə bağlı MÜRACİƏT

***Baş Dövlət Yol Polisi İdarəsi (BDYPİ) məlumat yayıb.***

BDYPİ-dən Unikal.org-a daxil olan məlumatda deyilir: "Yeni dərs ilində ölkəmizin ümumi təhsil müəssisələrində, eləcə də ali, orta ixtisas və digər təhsil ocaqlarında tədrisin ənənəvi şəkildə təşkili küçə və yollarda təhsilalanların, xüsusilə uşaq və yeniyetmələrin yol hərəkəti ilə bağlı həyat və sağlamlıqlarının qorunması işində daha kəsərli tədbirlərin görülməsini tələb edir.

Elə bu səbəbdən, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin müvafiq göstərişinə əsasən, sentyabr ayının 20-dən oktyabr ayının 20-dək ölkə ərazisində "Diqqət, uşaqlar!" adı altında hərəkətin təhlükəsizliyi aylığı keçiriləcək.

Tədbir çərçivəsində uşaq və yeniyetmələrin iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində nəzarət-profilaktiki tədbirlərin gücləndirilməsi ilə yanaşı, onların hərəkət marşrutlarında, təhsil müəssisələrinin yerləşdiyi ərazilərdə yol şəraitinin müayinə olunması, müvafiq yol nişanlarının qoyulması, nişanlanma xətlərinin çəkilməsi və ya yenilənməsi, eləcə də ölkədə mövcud olan sanitar-epidemioloji vəziyyət nəzərə alınmaqla təhsil işçiləri, valideynlər və ictimai təsisatlarla birgə təhsilalanlar arasında maarifləndirilmə və təbliğat-təşviqat işinin daha da canlandırılması nəzərdə tutulur.

DİN-in Baş Dövlət Yol Polisi İdarəsi yollarda uşaq travmatizminin minimuma endirilməsi istiqamətində hər birimizi ictimai iştirakçılığa və yol hərəkəti qaydalarına riayət etməkdə azyaşlılara şəxsi nümunə olmağa dəvət edir".

# Vətən sevgisi ilə müqəddəslik zirvəsinə ucalan ömür sahibi

***Astara rayonunun Pensər kəndində dünyaya göz açan Pərvin Təbriz oğlu Salmanzadə doğma Vətənə, torpağa halal sevgisini İkinci Qarabağ müharibəsində tam sübuta yetirdi. Müharibə meydanında yağının bağrına çat salmaqla bir tarix yazdı. Özü şəhid olsa da, qaldı ki, xalqı üçün qoyduğu yadigarlar əbədidir. Və əməllərinin mayasında Vətəni sevmək, torpağı qorumaq əzəməti dayanır.***



Bəli, həyata mehr-məhəbbət, əzəmət gətirən əməllərə tapınmaqla Pərvin əsgərlik yaşına çatır. 2009-cu ildə hərbi xidmətə yola düşəndə el-obada özünə görə hörmət sahibi idi. Əsgərliyini cəbhənin ən qaynar xəttində keçirən Pərvin doğma Azərbaycana sədaqətlə xidmət edir, Vətənin bir qarış torpağından ötrü canından belə keçməyə həmişə hazır durur. Elə onu əsgərlər arasında nüfuz sahibi edən də Vətən sevgisindən doğan keyfiyyətləri olur. Ən əsası köksündə qəhrəman ürəyi döyünən Pərvinin vətənpərvərliyi, milli ləyaqət hissi, düşmənə alovlu nifrəti xidmət etdiyi hərbi hissədə hamı üçün nümunə olur.

Üzüağ əsgəri xidmətdən kəndinə dönən Pərvin özünü əmək meydanında sınayır. Necə deyərlər, firavan həyat naminə maddi nemətlər bolluğu yaratmaq uğrunda əzmlə çalışır. Özü də Pərvin bütün fəaliyyətini xalqın, Vətəninin taleyi ilə bağlayır. Getdiyi halallıq yolunda saf duyğularla yaşayan, məsləkli adamlardan öyrəndikləri də çox olur. Bütün bunlarla bərabər düşmən tapdağında olan Qarabağdan ötəri ürəyi darıxır. Vətənin qeyrətli oğlu özlüyündə götür-qoy edir və torpaq naminə yerini səngərdə, məqamı gələndə döyüşdə görür. 2020-ci ildə yenidən hərbiyə gedir. Onu MAXE vəzifəsində işə götürürlər. Pərvin xidməti vəzifəsinin öhdəsindən layiqincə gəlir, işğal altında olan Vətən torpaqlarını düşməndə geri almaqdan ötrü hərbi sirlərini mükəmməl öyrənir. Çox keçmir düşmənlə mübarizə aparmaq üçün özündə tükənməz qüvvə hiss edir.

Nəhayət ki, bütün Azərbaycan xalqının arzuladığı gün gəlir. 27 sentyabr də İkinci Qarabağ müharibəsi başlanır. Pərvin də Vətən yolunda can qoyan qeyrətli oğlanlara qatılıb ən qızğın od-alovlu döyüş bölgəsinə yollanır. Ağdərə, Xocavənd istiqamətlərdə gedən ağır müharibədə daha rəşadətli olur, düşmənə qarşı qəhrəmancasına vuruşur. Çavuş olduğu dəstəyə də sözü belə olur:" Vətən torpağı müqəddəsdir, onun bir qarışı da gərək yağıya qismət olmasın." Cəsur döyüşçü Cəbrayılda, Füzulidə də hər qarşı torpaq uğrunda can qoymaqla sarsıdıcı zərbələri ilə erməni faşistləri darmadağın edir. 6 noyabr 2020-ci ildə Şuşa şəhərində şəhid olur. Burada da düşmənə üreyində arzuladığı dərs keçir. Sonda komandiri qəfil gülləden qorumaq üçün özünü onun üstünə atır. Komandirini xilas etsə də, öz həyatını canından artıq sevdiyi Vətəninə qurban verir...

Pərvinin Vətəninə, xalqına olan sevgisi Uca Tanrıdan gəlirdi. Onu əbədiyyət zirvəsinə ucaldanda bu sevgi oldu. Dövlət isə ölümündən sonra öz igid oğlunu beş- "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medallar ilə təltif etdi.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Saxta vaksin sənədi verən həkimlərə cinayət işi açıldı

***Qanunsuz olaraq pul müqabilində vətəndaşlara saxta "COVID-19" vaksin sertifikatı təqdim edən şəxslərə cinayət işi açılıb.***



Bu barədə "Unikal"a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib. Belə ki, Bakı şəhəri ərazisində qanunsuz olaraq pul müqabilində vətəndaşlara "COVID-19" əleyhinə peyvənd vurulmadan vaksin serifikatının və aidiyyəti qurumlara təqdim etmək üçün saxta arayışlar verilməsi barədə daxil olan məlumat əsasında həyata keçirilən təxirəsalınmaz əməliyyat tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313 (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Aparılan istintaq-əməliyyat tədbirləri ilə Bakı şəhəri 20 saylı şəhər poliklinikasında həkim-terapevt Günay Hüseynovanın həmin poliklinikada tibb bacısı Nailə Musayeva, Abşeron Rayon Mərkəzi Xəstəxanası PHŞ-nın Mehdiabad Ailə Sağlamlıq Mərkəzində mama-ginekoloq Esmira Xudayarova, Mərkəzi Dəmir Yol Xəstəxanasının həkim-terapevti Bəsdi Behbudova və "Paşa-K" firmasının reklam üzrə mütəxəssisi İlahə Quliyeva ilə cinayətkar əlaqəyə girərək tamah niyyəti ilə Bakı şəhəri ərazisində 100 nəfərdən artıq şəxsin hər birindən 200-250 manat məbləğdə pul alınması müqabilində "COVID-19" əleyhinə peyvənd vurulmadan vaksin sertifikatının verilməsini, qeydiyyata alınmasını, vətəndaşlar barədə "E-Təbib" portalında mövcud olan məlumatların dəyişdirilməsini təşkil etmələrinə əsaslı şübhələr müəyyən edilib.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak edən digər şəxslərin müəyyənləşdirilməsi və məsuliyyətə cəlb edilməsi istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

# İdarələrarası Mərkəzin "Şəhərsalma məsələləri üzrə" İşçi Qrupunun onlayn iclası keçirilib

***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin "Şəhərsalma məsələləri üzrə" İşçi Qrupunun növbəti onlayn iclası keçirilib.***



"Unikal" xəbər verir ki, İşçi Qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi toplantıda işğaldan azad edilmiş ərazilərin planlaşdırma sənədlərinin hazırlanması, regiondakı yaşayış məntəqələrinin yenidənqurması, zəruri infrastrukturun yaradılması və yerli əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində aparılan işlərin icra vəziyyəti haqqında məlumat verilib. Bildirilib ki, planlaşdırma sənədlərinin təyin olunmuş müddətdə hazırlanaraq başa çatdırılması üçün işğaldan azad olunmuş ərazilərdə müvafiq qurumlar tərəfindən hazırda görülən və planlaşdırılan işlərin əlaqələndirilməsi, məlumat mübadiləsi vacib məsələlərdəndir.

İclasda Ağdam şəhərinin Baş planına əsasən həyata keçirilən layihələr və qarşıda duran vəzifələr, o cümlədən digər şəhərlərin Baş planlarının hazırlanması istiqamətində müzakirələr aparılıb. Bununla yanaşı, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Qarabağ Rəqəmsal Geoinformasiya sisteminə inteqrasiya olunmalı qurumlar üzrə hesabatı təqdim edilib.

Onlayn toplantıda aidiyyəti dövlət qurumlarının nümayəndələri tərəfindən mühəndis kommunikasiya və nəqliyyat infrastrukturu layihələri, digər sahələrdə görülən işlər ətrafında fikir mübadiləsi aparılıb, məsələlərin birgə həlli yolları təhlil edilib.

# Benzinin qiyməti niyə bahalaşdı? - SOCAR-dan AÇIQLAMA

***""Aİ-95" və "Aİ-98" markalı benzinin qiyməti ildə bir neçə dəfə dəyişir. Başqa ölkələrdə isə qiymət həftədə bir neçə dəfə dəyişir".***

Unikal.org xəbər verir ki, bunu SOCAR-ın İctimaiyyətlə əlaqələr və tədbirlərin təşkili idarəsinin rəis müavini İbrahim Əhmədov İctimai TV-nin efirində sözügedən markalı benzinin qiymətlərinin bahalaşmasına münasibət bildirərkən deyib. "Qiymətlər həm qalxır, həm də düşür. Ötən il Aİ-95 markalı benzinin qiyməti 1.50 qəpikdən 1.10-a qədər düşmüşdü. Sonra isə tədricən artmağa başladı.

Qiymətin düşməsinin və artmasının səbəbi əsasən dünya bazarlarında neftin və neft məhsullarına bağlıdır", - deyə İ. Əhmədov bildirib.

Qeyd edək ki, sentyabrın 15-dən "Aİ-95" markalı benzinin qiyməti 1,60 AZN, "Aİ-98" markalı benzinin qiyməti isə 1,90 AZN-ə qalxıb.



# DGK əməkdaşı "Qlobal ekspertlər hövzəsi"nə üzv seçildi

***Birləşmiş Millətlər Təşkilatı "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin dünya ölkələri tərəfindən beynəlxalq standartlara uyğun qurulması üçün "Qlobal ekspertlər hövzəsi" yaradıb və ümumilikdə, həmin bazaya dünya üzrə 40-a yaxın ekspert daxil edilib. Ekspertlər əsasən Amerika, Avropa və Avstraliyanı təmsil edir.***




"Unikal" xəbər verir ki, regiondan Azərbaycanı təmsilən Dövlət Gömrük Komitəsinin Beynəlxalq ticarətə dəstək şöbəsinin rəisi Rövşən Namazov da "Qlobal ekspertlər hövzəsi"nə daxil edilib. Gələcəkdə Azərbaycan, o cümlədən BMT təcrübəsinin digər ölkələr ilə paylaşılması, yaxud həmin ölkələrdə "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması prosesinə Rövşən Namazov DGK-nın və BMT-nin eksperti kimi cəlb olunacaq.

Qeyd edək ki, "Azərbaycanda "Sərnişinlərə dair ilkin məlumat" (APİ) və "Sərnişin adlarının qeydiyyatı" (PNR) sistemlərinin qurulması" üzrə aidiyyəti dövlət qurumlarının nümayəndələrindən ibarət yaradılmış işçi qrupuna Dövlət Gömrük Komitəsi tərəfindən rəhbərlik edilir. İşçi qrupunun əsas məqsədi Azərbaycanda beynəlxalq standartlara uyğun APİ/PNR sistemlərinin tətbiqi və bu çərçivədə qanunvericiliyin təkmilləşdirilməsi, bütün aidiyyəti dövlət qurumlarının tələb və funksiyalarına cavab verəcək vahid risk mexanizminin yaradılması, "Sərnişin Məlumat Mərkəzi" (PİU) və hüquq-mühafizə orqanları arasında əlaqələndirilmə təcrübəsinin öyrənilməsi, məlumatların düzgün emalı, o cümlədən səmərəli təhlili sahəsində potensialın gücləndirilməsi kimi uzunmüddətli hədəflərdən ibarətdir. Sözügedən məsələlərlə əlaqədar olaraq 2019-cu ildən etibarən BMT-nin Terrorla Mübarizə İdarəsi ilə birgə fəaliyyət göstərilir.

# Ağstafada reyd keçirildi - 23 sürücü cərimələndi

***Ağstafada yol polisi təhlükəsizlik tədbirlərini davam etdirir.***



Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan Bakıvaxtı.az-a verilən məlumata görə, Ağstafa rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin (DYP) əməkdaşları tərəfindən rayon ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və piyadaların vurulması ilə nəticələnən yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədi ilə mütəmadi nəzarət-profilaktiki tədbirlər keçirilir.

Keçirilən tədbirlər nəticəsində bir neçə avtomobilin ixrac qazlarının tərkibində olan zərərli maddələrin normadan artıq olduğu üçün atmosferi çirkləndirməsi aşkar edilib. Həmin sürücülər inzibati məsuliyyətə cəlb edilib. Vətəndaşların bir daha diqqətinə çatdırılıb ki, istifadələrində olan nəqliyyat vasitələrinin yanacaq sistemi tənzimləməklə saz vəziyyətə gətirilməli və ixrac qazlarının tərkibinin normalara uyğunlaşdırılması təmin edilməlidir.

DYP əməkdaşları piyadalar ilə də profilaktiki söhbət apararaq, onlara müəyyən edilmiş səkilərdən və piyada keçidlərindən istifadənin həm piyadaların həm də digər şəxslərin təhlükəsizliyi üçün vacib olduğu bildirilib.

Şəhər daxili sərnişin daşıma ilə məşğul olan avtobuslarda aparılan yoxlamalar zamanı isə karantin qaydalarının təmin edilməsi, tibbi maskadan istifadə edilməsi barədə vətəndaşlarla profilaktiki söhbətlər aparılıb, edilən xəbərdarlıqlara baxmayaraq karantin qaydalarını pozan sürücü və sərnişinlər barədə qanunamüvafiq tədbir görülüb. Keçirilən tədbirlər nəticəsində 23 nəfər inzibati məsuliyyətə cəlb olunub.

# Pensiya alanlara ŞAD XƏBƏR

***Ölkə üzrə sentyabr ayının pensiyaları tam ödənilərək başa çatdırılıb.***

"Unikal" xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən sentyabr ayı üzrə güzəştli şərtlərlə pensiya hüququna malik şəxslər də daxil olmaqla bütün pensiyaların ödənişi başa çatdırılıb.

Vətəndaşlar pensiyalarını kartları vasitəsilə müvafiq bankların bankomatlarından əldə edə bilərlər.

# "Zəfər tarixi" dərsliyinin hazırlanması işi son mərhələdədir

***"Hazırda "Zəfər tarixi" ilə bağlı dərsliyin hazırlanması işi son mərhələdədir. Yeni dərslikdə şagirdlər Azərbaycan tarixi barədə ətraflı və dəqiq məlumatlara sahib ola biləcəklər".***

"Unikal" xəbər verir ki, bunu təhsil nazirinin müavini Firudin Qurbanov "Media və təhsil dialoqu" mövzusunda keçirilən təlimdə çıxışı zamanı bildirib.

O qeyd edib ki, Təhsil Nazirliyi daim dərsliklərin təkmilləşdirilməsi istiqamətində çalışır.

# "Kapital Bank" "Sürətli tender" limitini növbəti dəfə artırıb

***"Kapital Bank" hüquqi şəxslərə və sahibkarlıq fəaliyyəti ilə məşğul olanlara ölkədə həyata keçirilən layihələrdə iştirak etmək üçün "Sürətli tender" məhsulunu təklif edir.***

Bankdan Unikal.org-a verilən məlumata görə, artıq bu məhsul üzrə banka müraciət edənlərə maksimal olaraq 100 000 manatadək limit təklif olunur.

Bununla da hüquqi şəxslər və sahibkarlar bank qarantiyası vermək üçün nəzərdə tutulan onlayn sürətli tender limitini həmin gün əldə edərək planlaşdırdıqları layihədə iştirak edə bilərlər.

"Sürətli tender" məhsulu bir sıra özəlliklərə malikdir: maliyyə təhlili və skorinq yoxdur; bir dəfə müqavilə bağlanır və daha sonra qarantiya məktubları ərizə əsasında rəsmiləşdirilir; limit rəsmiləşdirilməsi komissiyasız həyata keçirilir; illik faiz və limit üzrə komissiya 0% təşkil edir; yalnız qarantiya məktubu əldə etdikdə birdəfəlik komissiya ödənilir.

Kapital Bank-ın KOS müştəriləri üçün nəzərdə tutulan Müştəri profili vasitəsilə məhsullarla bağlı məlumatlarla yanaşı, Banka gəlmədən bütün sifarişlərini yönləndirmək imkanı vardır. Qeyd edək ki, "Sürətli tender" məhsulunu almaq istəyənlər qeyd edilən linkə - https://kbl.az/cbpcr və ya Bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə müraciət edə bilərlər.

## Putin KTMT liderlərinin görüşünə onlayn qatılacaq



***Rusiya Prezidenti Vladimir Putin Düşənbədə KTMT liderlərinin görüşündə videoformatda qatılacaq.***

Unikal.org xəbər verir ki, buna səbəb Putinin koronavirusdan qorunmaq üçün özünütəcrid rejiminə keçməsi olub.

Bildirilir ki, onlayn görüşdə KTMT üzv ölkələrinin beynəlxalq və regional təhlükəsizliyin aktual məsələlərini müzakirə ediləcək.

***Gülayə Mecid***

## Kadırov çeçen komandiri təhdid etdi: "Səni yandıracağam"

***Çeçenistan lideri Ramzan Kadırov etdiyi sərt çıxışlarla gündəmə gəlib.***

Unikal.org xəbər verir ki, çeçen səhra komandiri Əhməd Zakayevi təhdid edib. Kadırov Zakayevlə bağlı təhdidlərini çeçen dilində səsləndirib.

"Əgər sən bir daha atamın adını çəksən, görəcəksən başına nə gəlir. Hətta bu dünya yansa belə, sən mənim atamın adını çəksən, mən səni özüm yandıracağam", - deyə o bildirib.

## "İslam Dövləti" terror qruplaşmasının lideri öldürüldü

***Fransa hərbçiləri Sahel bölgəsindəki İŞİD terror təşkilatının liderini məhv edib.***

Unikal.org xəbər verir ki, bu barədə Fransa prezidenti Emmanuel Makron öz "Twitter" səhifəsində yazıb.

"Böyük Saharada "İslam Dövləti" terror qruplaşmasının lideri Adnan Əbu Valid əl-Sahraui Fransa qoşunları tərəfindən zərərsizləşdirilib. Bu, Saheldəki terror qruplaşmalarına qarşı mübarizəmizdəki daha bir böyük uğurdur" - deyə E.Makron qeyd edib.

## Bu 3 ölkə Çinə qarşı "təhlükəsizlik ortaqlığı" yaratdı

***İngiltərənin Baş naziri Boris Conson, ABŞ Prezidenti Co Bayden və Avstraliyanın Baş naziri Skott Morrison, üç ölkənin adlarının İngilis dilində qısaltması olan "Aukus" (A+UK+US) adlı yeni bir təhlükəsizlik ortaqlığının başladığını elan ediblər.***

Unikal.org xəbər verir ki, bu ölkələr Avstraliya Kral Donanmasının nüvə enerjisi ilə işləyən sualtı gəmiləri əldə etməsinə dəstək və imkan verəcək.

Avstraliyaya məxsus olacaq nüvə enerjili sualtı gəmilərin Hind-Sakit okeandakı sabitliyi dəstəkləyəcəyi və bu ölkələrin ortaq dəyərləri və maraqlarını dəstəkləmək üçün istifadə ediləcəyi bildirilib.

Birgə bəyanatda Hind-Sakit okeanında "həll edilməmiş ərazi mübahisələri, terror təhdidləri və mütəşəkkil cinayətkarlıq da daxil olmaqla, ehtimal olunan nöqtələrə malik bir bölgə" olaraq xarakterizə edilib.

Məsələyə münasibət bildirən İngiltərə Baş naziri Johnson, müqavilənin "təbii müttəfiqlər" arasında bağlandığını, həmçinin sözügedən müqavilənin bu 3 dövləti daha da yaxınlaşdıracağını qeyd edib:

"Bu tərəfdaşlıq, maraqlarımızı müdafiə etmək və hüquqlarımızı qorumaq üçün getdikcə daha həyati əhəmiyyət kəsb edəcək".

Bu ölkələr, həm də Çinin Hind-Sakit okean bölgəsində artan hərbi varlığının qarşısını almaq üçün bu müqaviləni həyati əhəmiyyətli hesab edirlər.

***Ağarza Elçinoğlu***

# Böyük oyunun detalları: ABŞ-ın məqsədi "sünni İranı" yaratmaqdır

***Vaxtilə Amerikanın xeyir-duası və Səudiyyə Ərəbistanının maliyyə dəstəyilə Pakistan ərazisində Molla Məhəmməd Ömər adlı din xadiminin yaratdığı "Taliban" hərəkatının ilkin məqsədi Sovet qoşunlarına qarşı vuruşmaq olub. Başqa sözlə, amerikalılar "Taliban"ı sovet qoşunlarını Əfqanıstandan çıxarmaq üçün yaratdılar və öz məqsədlərinə də çatdılar. Bu gün isə "Taliban" Amerikaya qarşı müharibəyə qalxır və dünya hegemonu olan dövləti uzaqlaşdıraraq, Əfqanıstana nəzarəti ələ alır. Dünya mediası bu hadisəni ABŞ-ın Əfqanıstanda məğlubiyyəti, "Taliban"ın "işğalçılar üzərində parlaq qələbəsi" kimi qələmə verir.***

Əslində isə "Taliban" yarandığı ilk gündən dediyimiz kimi, Amerikanın layihəsi olub və tarixi tələblərə uyğun olaraq, Vaşinqtonun sifarişlərini yerinə yetirib. SSRİ qoşunlarının Əfqanıstanı tərk etməsindən tutmuş, 1996-2001-ci illərdə hakimiyyətin ələ keçirilərək, qatı şəriət sistemilə dövlət idarəetməsinin qurulması, sonradan 2001-ci ildə yenidən gözdən itmələri və nəhayət, 2021-ci ildə hərbi-siyasi səhnəyə parlaq debütlə atılıb, yenidən hakimiyyəti ələ almaları əvvəlcədən hazırlanmış ssenarinin uğurlu premyerasına çox bənzəyir.

"Taliban" hərəkatı Vaşinqtonun Yaxın Şərqdəki əsas strateji tərəfdaşlarından olan Qətərin paytaxtı Dohada açıq şəkildə fəaliyyət göstərən nümayəndəliyi vasitəsilə Amerika ilə danışıqlar aparırdı. "Taliban"-ABŞ danışıqları 2011-ci ildən başlamışdı və bu danışıqlarda əsas vasitəçi ölkələr Türkiyə ilə Qətər idilər. Danışıqların bilinən əsas nəticəsi odur ki, Vaşinqtonun Əfqanıstandan qoşunlarını çıxarmasının müqabilində "Taliban" ölkə ərazisində İŞİD və Əl-Qaidənin fəaliyyət göstərməsinə şərait yaratmayacağına söz verir. Təbii ki, ABŞ-ın qeyd olunan məqsədlər üçün "Taliban"la 10 ildən artıq danışıqlar aparması, 20 ilə yaxın Əfqanıstana trilyon dollardan çox vəsait xərcləməsi gülünc səslənir. Əslində 10 il ərzində Yaxın Şərq regionunda tətbiq olunacaq yeni geosiyasi planın konturları cızılır və əsas oyunçular müəyyən edilirdi. "Taliban" isə bu geosiyasi lövhədə fiqurlardan biri olacaqdı.

Yaxın Şərqin iki sünni dövləti, İranın başçılıq etdiyi "şiə oxu"na qarşı birgə müttəfiqliyə imza atmış Səudiyyə Ərəbistanı ilə Qətər arasında münasibətlər 2014-cü ildən pisləşməyə başladı. Ər-Riyad Dohanı özünə təhlükə hesab etdiyi təşkilatları dəstəkləməkdə günahlandırırdı. Söhbətin hansı təşkilatlardan getdiyi məlum deyildi və yalnız ehtimallar irəli sürülürdü. Nəhayət, bu konfrantasiya 2017-ci ildə Ər-Riyadla Dohanın diplomatik münasibətlərin pozulmasıyla nəticələndi. Halbuki, bu iki ölkə 2014-cü ildəki "Ərəb baharı"ndan sonra Yəməndə sünni hakimiyyəti qurmaq üçün İranın dəstəklədiyi qüvvələrə qarşı birgə mübarizə aparırdılar. Qətər Səudiyyə Ərəbistanının İrana qarşı qurduğu sünni ittifaqının ən fəal üzvü hesab olunurdu. Qətərlə Səudiyyə Ərəbistanının diplomatik münasibətlərinin qırılmasından ruhlanan "sünni ittifaqı"nın BƏƏ, Bəhreyn və Misir kimi digər üzvləri də bu ölkədən üz döndərdilər.

Ancaq bu məqamda gözlənilməz bir hadisə baş verdi. Səudiyyə Ərəbistanı ilə münasibətlərinə xüsusi qayğı ilə yanaşan Ərdoğan nədənsə kiçicik Qətər dövlətini dəstəkləmək qərarına gəldi və bununla da, "sünni ittifaqı" Ankaraya düşmən kəsildi.



Həmin dövrə bugünki reallıqların fonunda baxanda aydın olur ki, Səudiyyə Ərəbistanının Qətərlə düşmənçiliyi Amerikanın Əfqanıstanı qatmaqla uzadılmış Yaxın Şərq platformasında ona yer verilməsinə etirazının təzahürü idi. ABŞ regionda Türkiyə, Pakistan və Qətərin tərəftdaşlığı ilə yeni ittifaq yaratdı və Əfqanıstan bura daxil edildi. Eyni zamanda, Azərbaycanın Türkiyə-Pakistan ittifaqına qoşulmasını ABŞ-ın böyük geosiyasi planının tərkib hissəsi hesab etmək olar.

Amerikanın bu ittifaq üçün Səudiyyə Ərəbistanından imtina etməsi də başadüşüləndir. Vaşinqton Ər-Riyadın başçılıq etdiyi koalisiyanın güclənməsindən ehtiyat edərək, regionda balansı qorumaq üçün onunla rəqabətə girə biləcək ikinci bir sünni koalisiyası qurmağa məcbur idi.

2011-ci ildən bu yana keçən on il ərzində Türkiyə və Qətər tərəfindən Əfqanıstanın müxtəlif ranqlarda olan bürokratik aparatı və təhlükəsizlik qüvvələrinə təlimlər keçirilir, faktik olaraq idarəçi korpusu formalaşdırılırdı. "Taliban"ın hakimiyyəti ələ keçirdikdən sonra məmur ordusu və təhlükəsizlik qüvvələrinə toxunmayacağını bildirməsi bu anlamda təsadüfi sayıla bilməz. ABŞ faktik olaraq 20 il ərzində qurulmuş idarətetmə mexanizmini hazır vəziyyətdə "Taliban"a təhvil verdi. Lakin bu, mexanizmin əsl sahibinin "Taliban" olduğu anlamına gəlmir, əsas idarəetmə pultunun Amerikanın əlində olunduğunu əminliklə söyləmək olar.

"Taliban" hərəkatının üzvlərinin islah olunması və qoyulmuş cizgilərdən çıxmaması ilə bağlı ciddi işin aparıldığını da demək olar. Hərəkatın lideri, Molla Ömərin 2011-ci ildə, yəni Qətərdə Talibanın ofisinin açılmasından sonra naməlum şəraitdə qətlə yetirilməsi, onun ardınca hərəkatın lideri seçilən Axtar Məhəmməd Mənsurun Pakinstanda Amerika PUA-sı tərəfindən vurulması da təsadüf deyildi. ABŞ nəyə görə ölkəni təhvil vermək üçün danışıqlar apardığı təşkilatın liderini vursun ki? Bəlkə ona görə ki, şərtlərilə razılaşmırdı?

"Taliban" rəhbərlərinin bəyanatlarını, ABŞ və tərəfdaşlarının siyasi gedişlərini nəzərə alsaq, ehtimal etmək olar ki, Əfqanıstanda İran modelli nisbi demokratik hüquqların mövcud olduğu teokratik təmayüllü idarəetmə sistemi qurulacaq. İranda olduğu kimi, "Taliban"ın hazırki lideri Xeybətulla Axundzadə Ali dini Lider tipli ömürlük vəzifə tutacaq, hərəkatın nüfuzlu üzvlərindən ibarət məşvərət şurası qurulacaq. İrandan əsas fərq isə ondan ibarət olacaq ki, Əfqanıstan sünni dövləti olacaq. Beləliklə regionda iki qarşı duran sunni-şiə dini dövləti olacaq.

Əfqanıstan kənardan xaos dövlət təsiri bağışlasa da, əslində idarəolunan xaos dövləti olacaq və bu xaos öz sərhəddində yerləşən Rusiya, Çin və İran kimi dövlətlər üçün hələ uzun illər ciddi başağrı mənbəyinə çevriləcək(azvision).

***Tofiq Vahid***

# “Bütün oyunlarımızın bu səviyyədə keçməsini istəyirəm” - Qurban Qurbanov



***“İlk oyuna çıxacağıq. Biz həmişə qrupda oynamağı istəmişik. Bu, tam başqa turnirdir”.***

Bunu “Qarabağ”ın baş məşqçisi Qurban Qurbanov Konfrans Liqasının qrup mərhələsinin I turunda “Bazel”lə keçiriləcək oyun öncəsi deyib. Sabah Bakı Olimpiya Stadionunda keçiriləcək qarşılaşma öncəsi mətbuat konfransı təşkil edən 49 yaşlı mütəxəssis fikrini bu sözlərlə davam etdirib: “Belə oyunlarda özümüzü yaxşı tərəfdən göstərmək istəyirik. İnanıram ki, sabah futbolçular ağıllı çıxış edəcək. Bunu onlara güvənərək deyirəm. Belə komandaya qarşı istəkli olmaq çox vacibdir”.

O bildirib ki, son vaxtlar İsveçrə futbolu tamam səviyyəyə çatıb: ”Dünən ”Yanq Boyz” ”Mançester Yunayted”ə qalib gəlib. Bu ölkənin futbolu bizə tanışdır”.

Qurbanov rəqib hücumçu Kabral haqda da danışıb: “Rəqib çox sürətli futbol oynayır və müdafiədən hücuma cəld çıxır. Biz analiz edəndə hər komandanın oyun sistemini analiz edirik. Daha sonra fərdi oyunçulara keçirik. Kollektiv oyun çox vacibdir. Həm hücumda, həm də müdafiədə bir-birimizə yaxın olmalıyıq. Futbolçularımız hər oyunçuya yaxın olacaq. Kabral cərimə meydançasında daha çox təhlükəlidir. Müdafiəçilərimiz onu yaxından tanıyacaqlar. İnanıram ki, hər oyunçu üçün yaxşı diqqət ayrılacaq”.

Təcrübəli baş məşqçi ”Neftçi” ilə qarşılaşmada çox güc sərf etdiklərini vurğulayıb: ”Bütün oyunlarımızın bu səviyyədə keçməsini istəyirəm. Oyunçular meydan amilinə görə daha çox güc sərf etməli oldu. Bu gün komandada bir az yorğunluq var. Amma hər bir halda onların durumuna görə məşq proqramı qurmuşuq. Bizim sabah səhər də məşqimiz olacaq. Qrupdakı ilk oyunda yorğunluq haqqında çox düşünməməliyik. Bu bizim əlimizdə səbəb olmamalıdır. İllərdir bu rejimdə oynayırıq. Mikro zədəli futbolçular var. Sabah komandanın tam heyət olaraq matça hazır olacağına inanıram”.

Mütəxəssis millinin oyunlarından sonra futbolçularda psixoloji çətinliklərin yaşandığını söyləyib: ”Qarabağ”ın futbolçuları digər komandaların oyunçularından daha çox matça çıxır. Futbolçuların nə qədər istirahət etməsi önəmlidir. Milli, çempionat və avrokubok tam başqa səviyyədir. Avrokubokda oynamayanda çempionat oyunlarına köklənmək daha asan olur. Belə amillər məni narahat edir. Psixoloji yorğunluq fiziki yorğunluğa da gətirib çıxarır. Onlar özlərini maksimum göstərməyə çalışırlar. Bu, futbolçuların borcudur. İbrahima Vadji son matçda yaxşı oynadı. Bu o demək deyil ki, Vadji bizim istədiyimiz oyunu sərgiləyib. Hər şeyi edəcəyik ki, daha yaxşı oyun göstərsin və kollektivə uyğunlaşsın. Tam fərqli çempionatdan gəlib. Onun fiziki gücündən və istəyindən razıyam. Bəzi komponentləri yaxşılaşdırmalıyıq. İnanıram ki, bu işgüzarlıq çatışmayan cəhətləri arxada qoyacaq. Bu gün ”Qarabağ”dakı bütün futbolçulara inanıram. Onlarla fərdi söhbətlərim olur”.

Qeyd edək ki, sabah Bakı Olimpiya Stadionunda oynanılacaq ”Qarabağ” - ”Bazel” görüşü saat 20:45-də başlayacaq.

# "Mahir Emreli yaxşı oyun nümayiş etdirdi" - "Legiya"nın baş məşqçisi



***Polşa ”Legiya”sının baş məşqçisi Çeslav Mixneviç Avropa Liqasının qrup mərhələsinin 1-ci turunda səfərdə ”Spartak”a 1:0 hesabı ilə qalib gəldikləri oyundan sonra keçirilən mətbuat konfransında komandanın futbolçusu Mahir Emreli haqda müsbət fikirlər səsləndirib.***

Qol.az xəbər verir ki, o, millimizin üzvünün sözügedən matçda yaxşı oynadığını deyib:

”Bilirdik ki, Cikiya (”Spartak”ın kapitanı - red) bir qədər yorula bilər. Çünki o, yaxşı oyun nümayiş etdirən Mahir Emreli ilə mübarizədə çox qaçmalı olmuşdu. Onun sayəsində Lirim Kastratinin meydana çıxaraq komandasına kömək etməsi üçün mükəmməl vaxt idi. Daha sonra Tomas Pekhart və Ernest Muçi meydana çıxmağa hazır olduqları ərəfədə Lukinyas və Emreli yaxşı imkan yaratdılar. Bu qolla bitə bilərdi, amma alınmadı. Əvəzetmələrimiz isə bəhrəsini verdi. Futbolçularımız əla kombinasiya yaratdılar və biz qol vurduq”.

# “Qarabağ”la oynamaq bizə təcrübə qazandıracaq”



***“Qarabağ”ın Konfrans Liqasının qrup mərhələsindəki rəqibi “Omoniya”nın (Kipr) baş məşqçisi Henninq Berq qrupdakı komandalar haqqında fikirlərini bölüşüb.***

“Unikal” prosport.kz-a istinadən xəbər verir ki, 52 yaşlı mütəxəssis 1-ci turda “Kayrat”la (Qazaxıstan) matçdan əvvəl təşkil edilən mətbuat konfransında Ağdam təmsilçisi kimi klublarla eyni qrupda yer almağın komandasına təcrübə qazandıracağını bildirib:

“Mübarizə apardığımız yarışlarda əsas məqsədimiz qələbə qazanmaq, çempion olmaqdır. Konfrans Liqasında da əlimizdən gələni edəcəyik. Amma mənim üçün Kipr çempionatı daha üstündür. Konfrans Liqasındakı rəqabət inkişaf etmək üçün yaxşıdır. Eləcə də maddi gəlir baxımından da şansdır. “Qarabağ”, ”Kayrat”, ”Bazel” kimi komandalarla oynamaq Avropada təcrübə qazandırır”.

Qeyd edək ki, bu gün keçiriləcək “Kayrat” - “Omoniya” matçı Bakı vaxtı ilə saat 18:30-da başlayıb. ”Qarabağ”la ”Omoniya” arasında ilk oyun isə sentyabrın 30-u Kiprdə olacaq.

# Bugünkü oyunlar hansı kanallarda?

***Avropa Liqası və Konfrans Liqasının qrup mərhələsinin 1-ci turunda keçiriləcək bəzi oyunlara Azərbaycan və Rusiya telekanalları vasitəsi ilə canlı yayımla baxmaq mümkün olacaq.***

“Unikal” xəbər verir ki, qarşılaşmalar aşağıda adları qeyd olunan kanallar vasitəsi ilə birbaşa nümayiş etdiriləcək:

**AZƏRBAYCAN**

“CBC Sport”
20:45. ”Qarabağ” - ”Bazel” - Konfrans Liqası
23:00. ”Ayntraxt” (Frankfurt) - ”Fənərbaxça” - Avropa Liqası

**RUSİYA**

“Matç TV”
18:30. ”Kayrat” - ”Omoniya” - Konfrans Liqası
20:45. ”Lokomotiv” - ”Marsel” - Avropa Liqası
23:00. ”Lester” - ”Napoli” - Avropa Liqası

**“Futbol 1”**
18:30. ”Kayrat” - ”Omoniya”
20:45. ”Qalatasaray” - ”Latsio” - Avropa Liqası
23:00. ”Reyners” - ”Lion” - Avropa Liqası

**“Futbol 2”**
20:45. ”Dinamo” (Zaqreb) - ”Vest Hem” - Avropa Liqası
23:00. PSV - ”Real Sosyedad” - Avropa Liqası

**”Futbol 3”**
20:45. ”Renn” - ”Tottenhem” - Konfrans Liqası
23:00. ”Roma” - SSKA (Bolqarıstan) - Konfrans Liqası

**”Matç iqra”**
23:00. ”Monako” - ”Şturm” - Avropa Liqası

# Əcnəbi futbolçunu I divizionda yetişdirmək üçün gətirib? - “Zirə”

***Premyer Liqa klublarının əsas heyət futbolçularını əvəzedici heyətə göndərmək prinsipinə “Zirə” də əməl edib.***

Apasport.az saytının məlumatına görə, Bakı klubu I divizionun açılış turunda “Səbail-2” ilə oyuna 3 futbolçusunu ikinci komandada sınayıb.

Onlardan Rəşad Əzizli və İlkin Muradovu hardasa başa düşmək olar. Çünki Əzizli əsas komandanın 3-cü qapıçısıdırsa, Muradov stabil çıxış etmir. İstənilən halda klub bu addımla gənc qapıçıların da inkişafının önünü kəsir.

Yay fasiləsində Ukrayna klubu “Lvov”dan icarəyə götürülən Velves Santosun əvəzedicilərdə meydana çıxması isə heç də başadüşülən deyil. 74 dəqiqə çıxış edən braziliyalı hücumçu 1 qolla komandasının qələbəsinə kömək ola bilər. Amma “Zirə-2”nin qələbəsi nə dərəcədə önəmlidir? Axı əvəzedici heyət aşağı yaş qruplarında yetişən gənclərin əsas komandaya hazırlığı üçündür.



Premyer Liqada limit ona görə qoyulub ki, həm yerli oyunçular kənarda qalmasın, həm də klublar samballı əcnəbilər gətirsin. Əcnəbi futbolçu gətirib yetişdirmək üçün deyil. Əksinə, onlar yerlidən iki dəfə üstün olmalıdır ki, bizim futbolçular da nəsə öyrənə bilsinlər. Velvesin də cəmi 20 yaşı var. “Neftçi” və “Keşlə” ilə matçda 45 dəqiqə meydanda olan “sambaçı” görünür hazır deyil ki, praktika üçün əvəzedicilərə göndərilir. Ancaq ölkəmizdə Velveslə yaşıd o qədər futbolçu var ki, onların da müntəzəm oynamalarına, inkişaf etmələrinə ehtiyac var. Hər halda gələcəkdə milli komandaya velveslər yox, diqqətdən kənarda qalan yerlilər namizəd olacaq.

Təəssüf ki, bu problem təkcə “Zirə”də deyil. Digər klublarımız da mövsümboyu analoji addıma tez-tez əl atırlar. Görmüşdük I divizionda özünü göstərən oyunçular əsas komandalara cəlb olunar. Ancaq deyəsən bizdə tərsinədir...